HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR



Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

Vergilər

AZƏRBAYCAN VERGİLƏR NAZİRLİYİ

№ 08 (698) ▪ 26 fevral 2014 www.vergiler.az Qiyməti: 40 qəp.

# Prezident İlham Əliyev Sumqayıt şəhərində olmuşdur

## Dövlətimizin başçısı bir neçə sənaye müəssisəsinin açılışında iştirak etmişdir



*Fevralın 25-də Azərbaycan Prezidenti İlham Əliyev Sumqayıt şəhərinə gəlmişdir. Dövlətimizin başçısı əvvəlcə ümummilli lider Heydər Əliyevin Sumqayıt şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət etmiş, önünə gül dəstəsi qoymuşdur.*

Sonra Prezident İlham Əliyev Sumqayıtda «Azərsun Sənaye Parkı»nın nəzdində yaradılan Azərbaycan kağız və karton istehsalat kombinatının açılışında iştirak etmişdir. Qeyd edilmişdir ki, «Sənaye ili» çərçivəsində belə müəssisələrin istifadəyə verilməsi bu sahədə 2014-cü ilin uğurlu olacağının daha bir göstəricisidir. Bildirilmişdir ki, müəssisə Sahibkarlığa Kömək Milli Fondu tərəfindən verilmiş güzəştli kredit və «Azərsun Holdinq» MMC-nin vəsaiti hesabına inşa olunmuşdur. Kombinatın foyesində ümummilli lider Heydər Əliyevin və Prezident İlham Əliyevin «Azərsun Holdinq» MMC-nin müxtəlif müəssisələrinin açılışlarında iştiraklarını əks etdirən fotostend nümayiş etdirilir.

Dövlətimizin başçısına kombinatın iş strukturu barədə məlumat verilərək bildirilmişdir ki,burada yeni və müasir texnologiyalar tətbiq olunur. Müəssisədə istehsal prosesi tam avtomatlaşdırılmışdır. Böyük həcmdə investisiya tələb edən bu tipli kombinat Qafqazda yalnız Azərbaycanda qurulmuşdur. İstehsal korpusu, müxtəlif bölmələr və hazır məhsul anbarından ibarət müəssisə inkişaf etmiş ölkələrin tanınmış şirkətlərinin müasir avadanlığı ilə təchiz edilmişdir. Burada qurulan avadanlıq hesabına yüksək keyfiyyətli və rəqabətədavamlı məhsul əldə etmək mümkündür. Ümumilikdə kombinatda istehsal prosesi dünya standartları və təcrübəsi əsasında həyata keçirilir. Kombinatın illik emal gücü 50 min tondur. Bu layihənin Sumqayıt ərazisində həyata keçirilməsi şəhərin sosial-iqtisadi inkişafında və əhalinin məşğulluğunun təmin olunmasında mühüm əhəmiyyətə malikdir. Kombinatda 150 nəfər işlə təmin edilmişdir.

Bildirilmişdir ki, müəssisənin fəaliyyətə başlaması kağız tullantıların təkrar istifadəsini təmin etməklə yanaşı, zəmanəmiz üçün son dərəcə aktual olan qlobal bir problemin - ətraf mühitin çirklənməsinin qarşısının alınmasında mühüm rol oynayır. Hesablamalara görə, müəssisənin fəaliyyəti nəticəsində ildə 850 min şam ağacının kəsilməsinin və meşələrin məhv olmasının, həmçinin atmosferə xeyli miqdarda zərərli maddələrin buraxılmasının qarşısı alınacaqdır. Müəssisənin xammala tələbatının 90%-i tullantı kağızların tədarükü hesabına ödəniləcəkdir. Bu məqsədlə respublikanın regionlarında gündəlik 60-70 ton kağız tullantıları tədarük etmək imkanına malik 30 məntəqənin yaradılması nəzərdə tutulmuşdur. Bu layihənin reallaşdırılması respublikamızın bölgələrində də yeni iş yerlərinin açılmasına şərait yaradacaq, əlavə 1000 nəfərin işlə təmin edilməsi mümkün olacaqdır.

Prezident İlham Əliyev kombinatı işə salmışdır.

Daha sonra Azərbaycan Prezidenti Sumqayıt yağ fabrikinin və mis emalı zavodunun açılışında iştirak etmiş, hər iki müəssisənin kollektivi ilə görüşmüşdür. Dövlətimizin başçısı Nəsimi adına Sumqayıt şəhər dənizkənarı mədəniyyət və istirahət parkında görülən əsaslı yenidənqurma və abadlıq işlərinin gedişi ilə də tanış olmuşdur.

# Heydər Əliyev Fondu təhsilin inkişafını daim diqqətdə saxlayır

*Fevralın 24-də Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın rəhbərliyi ilə Fondun məktəbəbəqədər təhsil müəssisələrinin inkişafı proqramının təqdimatı olmuşdur.*



Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva mərasimdə çıxış edərək son illər ölkəmizdə bütün sahələrdə iqtisadi yüksəliş olduğunu, təhsilin inkişafına göstərilən diqqətin və bu sahəyə ayrılan vəsaitin artdığını bildirmiş, on il ərzində ölkədə 2700 məktəb inşa olunduğunu və ya əsaslı təmir edildiyini bildirmişdir.

Mehriban Əliyeva 2005-ci ildə Heydər Əliyev Fondunun təşəbbüsü ilə «Yeniləşən Azərbaycana yeni məktəb» layihəsinin uğurla icra olunduğunu qeyd edərək bildirmişdir ki, hazırda böyük infrastruktur layihələrinin icrasına cəlb olunmuş Azərbaycan şirkətlərinin və sahibkarlıq subyektlərinin sosial məsuliyyəti artmalı, işgüzar dairələr sosial layihələrdə iştirak etməlidir. Üçüncü regional inkişaf proqramı çərçivəsində təmirə ehtiyacı olan bütün məktəblərin yenidən qurulacağını və ölkədə bir dənə də olsun təmirsiz məktəbin qalmayacağını deyən Mehriban Əliyeva Fondun «Uşaq evləri və internat məktəblərinə dəstək» layihəsindən də danışmış, bu çərçivədə 32 internatın və uşaq evinin yenidən qurulduğunu, layihənin icrası zamanı Heydər Əliyev Fondunun özəl sektor ilə gözəl işbirliyi yaratdığını diqqətə çatdırmışdır.

Heydər Əliyev Fondunun yeni layihəyə start verdiyini bildirən Mehriban Əliyeva Fondun məktəbəqədər təhsil müəssisələrində mövcud vəziyyətin monitorinqini apardığını bildirmiş, digər layihələr kimi məktəbəqədər təhsil müəssisələrinin inkişafı proqramının da uğurla icra olunacağına əminliyini vurğulamışdır.

Təqdimatda Fondun apardığı monitorinqin nəticələri açıqlanaraq bildirilmişdir ki, paytaxtda 414 məktəbəqədər təhsil müəssisəsi mövcuddur. Onlardan 137-nin əsaslı təmirə ehtiyacı var, 11-i isə qəzalı vəziyyətdədir. Hazırda 133 məktəbəqədər təhsil müəssisəsində təmir işləri aparılır. O da qeyd olunmuşdur ki, məcburi köçkünlər üçün salınan 83 qəsəbədə 28 min şagird yerlik 140 orta məktəb, 50 uşaq bağçası tikilib. Yaxın iki ayda isə Bakı şəhərindən bağçalarda məskunlaşan 133 ailənin yeni mənzillərə köçürülməsi nəzərdə tutulur.

# Dünya Xocalı həqiqətlərini etiraf etməyə başlayır

***1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalıda yaşanan dəhşətli soyqırımı aktından 22 il ötür. Erməni faşizminin mənfur xislətini ifşa edən bu kütləvi və amansız soyqırımı Azərbaycanın dövlət müstəqilliyinə və ərazi bütövlüyünə qarşı çevrilmiş terror siyasətinin təzahürü olmaqla təkcə azərbaycanlılara qarşı deyil, bütövlükdə insanlıq əleyhinə törədilmiş qəddar cinayətdir.***

Həmin gün azğınlaşmış erməni birləşmələri imperiyanın 366-cı motoatıcı alayının bilavasitə iştirakı ilə mühasirəyə aldıqları Xocalı şəhərinə qarşı əvvəlcədən hazırladıqları məkrli planı işə saldılar: 613 nəfər dinc azərbaycanlını, o cümlədən 63 uşağı, 106 qadını, 70 qocanı bir neçə saatın içində amansızlıqla qətlə yetirən, 487 nəfəri ağır xəsarətlərə məruz qoyan, 1275 nəfəri girov götürən ermənilər miqyasına və qəddarlığına görə bəşər tarixində daha bir dəhşətli soyqırımı törətdilər. Xocalı soyqırımı Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsini zəbt etmək məqsədi ilə Ermənistanın apardığı işğalçılıq müharibəsinin gedişində miqyasına görə ən ağlasığmaz cinayətdir.




Xocalı soyqırımının beynəlxalq müstəvidə tanıdılması və erməni faşizminin ifşası ilə bağlı ilk əməli təşəbbüs ulu öndər Heydər Əliyevin fəaliyyəti ilə bağlıdır. Onun təşəbbüsü ilə 1994-cü il fevralın 24-də Milli Məclis «Xocalı soyqırımı günü haqqında» qərar qəbul etmiş, BMT-yə, dünya dövlətlərinə bu qətliamın gerçək mahiyyətini açıqlayaraq beynəlxalq ictimaiyyəti erməni terrorizminə qarşı təsirli tədbirlər görməyə çağırmışdır. Son 22 ildə Xocalı həqiqətlərinin dünyada tanıdılması, Ermənistanın sovet hərbi dairələrinin dəstəyi ilə həyata keçirdiyi insanlıq əleyhinə cinayətin beynəlxalq miqyasda ifşası istiqamətində xeyli iş görülmüş, müxtəlif dillərdə kitablar, sənədlər dərc olunmuş, Xocalı faciəsi beynəlxalq təşkilatlarda gündəmə gətirilmiş, bununla bağlı bir çox internet saytları yaradılmışdır.

Ümummilli lider Heydər Əliyevin «Xocalı soyqırımı qurbanlarının xatirəsinə sükut dəqiqəsi elan edilməsi haqqında» 25 fevral 1997-ci il tarixli sərəncamı ilə hər il fevral ayının 26-sı saat 17.00-da Azərbaycan Respublikasının ərazisində Xocalı soyqırımı qurbanlarının xatirəsinə ehtiram əlaməti olaraq bir dəqiqəlik sükut elan edilir.

«Biz müdafiədə deyil, hücumda olmalıyıq» - deyən Prezident İlham Əliyev də bədnam erməni lobbisinin saxta təbliğatına qarşı effektiv əks-hücumun təşkilini mühüm vəzifələrdən biri kimi müəyyənləşdirmişdir. Bu baxımdan, dövlət başçısının tapşırıq və tövsiyələri əsasında son illər Xocalı faciəsinin dünya ölkələrində tanıdılması, erməni qəsbkarlarının ifşası istiqamətində sistemli iş aparılır. Hər il Prezident Administrasiyası tərəfindən tədbirlər proqramı təsdiqlənir və icra edilir.

Bu sahədə Heydər Əliyev Fondunun xidmətlərini xüsusi qeyd etmək lazımdır. Fond bəşəriyyətin ən böyük faciələrindən olan Xocalı soyqrımı haqda faktların dünya ictimaiyyətinə çatdırılması üçün sistemli və ardıcıl fəaliyyət göstərir. Bütün bunların məntiqi nəticəsi olaraq son illər Kanada, Meksika, Kolumbiya, Peru, Pakistan İslam Respublikası, Bosniya və Herseqovina, Rumıniya, Çexiya və İordaniyanın parlamentləri tərəfindən Xocalı soyqırımı tanınmışdır.

2 «ASAN xidmət» Avropaya təqdim olundu

3 «Şou-biznes nümayəndələrinin bir qismi heç də nümunəvi vergi ödəyicisi deyil...»

4 Azərbaycan və Moldovanın vergi orqanları arasında əlaqələr güclənir

5 Regional inkişafla bağlı yeni dövlət proqramının əsas hədəfləri

# Vergilər naziri Mingəçevir şəhərində vətəndaşları qəbul etmişdir



*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşları qəbul edir, onların qarşılaşdığı problemlərin həllinə köməklik göstərirlər.*

Fevral ayının 21-də vergilər naziri Fazil Məmmədov Mingəçevirdəki Heydər Əliyev Mərkəzində Mingəçevir şəhərindən, Yevlax və Goranboy rayonlarından olan vətəndaşları qəbul etmişdir. 50-dən çox vətəndaş vergilər nazirinə vergilərin hesablanması, ödənilməsi, nəzarət-kassa aparatlarının tətbiqi, vergi borcları, vergi nəzarəti tədbirləri sahəsində sahibkarların qarşılaşdıqları problemlər, vergi ödəyicilərinə göstərilən xidmətlər, kiçik sahibkarlığa güzəştli kreditlərin verilməsi, vergi orqanlarına işə qəbul və digər məsələlərlə bağlı müraciət etmişdir.

Qəbul zamanı qaldırılan problemlərin əksəriyyəti yerindəcə həll olunmuş, digərləri nəzarətə götürülmüş, bir sıra məsələlərin araşdırılması və lazımi tədbirlər görülməsi barədə tapşırıqlar verilmişdir. Qəbula gələn vətəndaşlar onlar üçün yaradılmış bu imkandan razı qaldıqlarını bildirmişlər.

# Avropa Şurasının nümayəndələri ilə görüş



*Fevralın 21-də Vergilər Nazirliyində Avropa Şurasının Çirkli Pulların Yuyulmasına və Terrorçuluğun Maliyyələşdirilməsinə Qarşı Tədbirlərin Qiymətləndirilməsi üzrə Ekspertlər Komitəsinin (MONEYVAL) qiymətləndirmə missiyası ilə görüş keçirilmişdir.*

Vergilər nazirinin müavini, 3-cü dərəcəli dövlət vergi xidməti müşaviri Sahir Məmmədxanov missiya üzvlərini salamlayaraq Azərbaycan hökumətinin MONEYVAL ilə əlaqələrə xüsusi önəm verdiyini bildirmiş, mövcud əməkdaşlıq çərçivəsində ölkəmizdə pul vəsaitlərinin leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsinə (PY/TMM) qarşı mübarizə sisteminin beynəlxalq standartlara uyğun qurulması istiqamətində görülən işlər barədə məlumat vermişdir.

Missiyanın rəhbəri Con Beyker Azərbaycan ilə MONEYVAL arasında əməkdaşlığın hazırkı səviyyəsindən məmnunluğunu ifadə edərək bildirmişdir ki, səfərin məqsədi ölkəmizin maliyyə sisteminin cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin leqallaşdırılması və terrorçuluğun maliyyələşdirilməsi risklərinə qarşı həssaslığının qiymətləndirilməsi və bu sahədə Azərbaycanda mövcud qanunvericiliyin səmərəliliyinin öyrənilməsidir. Qeyd olunmuşdur ki, MONEYVAL üzv dövlətlərdə çirkli pulların yuyulması və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə üzrə səmərəli sistemlər hazırlanmasını və bu sahədə qanunvericiliyin müvafiq beynəlxalq standartlara cavab verməsini təmin edir. Azərbaycan Respublikası 2002-ci ildən MONEYVAL-da təmsil olunmağa başlamış, ilk qiymətləndirmə hesabatı 2004-cü ildə qəbul edilmişdir. Sonuncu dəfə isə 2008-ci ildə MONEYVAL tərəfindən ölkəmiz üzrə qiymətləndirmə aparılaraq hesabat hazırlanmış, Azərbaycanda PL/TM ilə effektiv mübarizə sisteminin formalaşdırılması baxımından təklif və tövsiyələr irəli sürülmüşdür. Həmin təklif və tövsiyələr ölkədə PL/TMM sisteminin formalaşdırılması və inkişafı istiqamətində aparılan islahatlar zamanı mühüm əhəmiyyət kəsb etmişdir.

C.Beyker bildirmişdir ki, son illərdə ölkədə PY/TMM sahəsində həyata keçirilmiş əhəmiyyətli hüquqi və institusional quruculuq işləri MONEYVOL tərəfindən yaxından izlənilir və qiymətləndirmə çərçivəsində əsas diqqət mövcud PY/TMM sisteminin səmərəli tətbiqi mexanizmlərinə yetiriləcəkdir.

S.Məmmədxanov MONEYVAL-ın son hesabatından sonrakı dövr ərzində ölkəmizdə müvafiq hüquqi bazanın xeyli möhkəmləndirildiyini, daha səmərəli nəzarət mexanizmlərinin tətbiq edildiyini və beynəlxalq əməkdaşlığın genişləndirilməsi istiqamətində görülmüş işləri qonaqların diqqətinə çatdıraraq nazirlik tərəfindən həyata keçirilmiş nəzarət tədbirləri, onların işləmə mexanizmləri barədə danışmışdır.

Görüş zamanı Vergilər Nazirliyi və MONEYVOL arasında gələcək qarşılıqlı əməkdaşlığın əsas istiqamətləri ətraflı müzakirə edilmiş, missiya əməkdaşlarını maraqlandıran suallar cavablandırılmışdır.

# «ASAN xidmət» Avropaya təqdim olundu

## *Avropa Parlamentində «Azərbaycanda innovasiya və mobil kimlik: Avropaya rəqəmsal inteqrasiyanın yeni növü» mövzusunda konfrans keçirilmişdir*

*Fevralın 19-da Avropa Parlamentində Azərbaycanda elektron hökumət sahəsində həyata keçirilən islahatlarla bağlı məsələlər müzakirə edilmişdir. Konfransda Avropa Komissiyasının və Avropa Parlamentinin üzvləri, Azərbaycanın və Estoniyanın hökumət və biznes nümayəndələri, informasiya texnologiyaları sahəsində fəaliyyət göstərən beynəlxalq şirkətlərin nümayəndələri iştirak etmişlər.*

Konfransı giriş sözü ilə açan Avropa Parlamentinin Estoniyadan olan deputatı, Estoniyanın sabiq xarici işlər naziri xanım Kristina Oyuland Sovet İttifaqının dağılmasından sonra Estoniyada institusional sahədə islahatların yeni texnologiyalar üzərində aparılmasının faydalarını vurğulamış, «Skype»ın vətəni Estoniyada elektron xidmətlərin köhnə metodları üstələdiyini qeyd etmişdir. K.Oyulandın sözlərinə görə, ölkəsi Azərbaycanın da bənzər hədəflərə çatmasına yardım göstərsə də, sonradan «şagird müəllimini ötüb keçmişdir». O, Azərbaycanda çox qısa müddət ərzində böyük populyarlıq qazanmış «ASAN xidmət»in nailiyyətlərini alqışlamış və bunun təkcə vətəndaşlar deyil, həm də hökumət üçün faydalı olduğunu söyləmişdir. Xanım Oyulandın sözlərinə görə, mülki xidmətlərdə bürokratik əngəllərin aradan qaldırılması hakimiyyət orqanlarına əlavə xərclərdən yan keçməyə imkan verir.



Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri İnam Kərimov qeyd etmişdir ki, 2013-cü ildən «Asan imza»nın istifadəyə verilməsi və təhlükəsizlik sisteminin yaradılması istifadəçilərə mobil telefonlar vasitəsi ilə rəqəmsal uyğunluğun müəyyənləşdirilməsinə imkan yaratmışdır. «Asan imza» layihəsinin Azərbaycan ilə Avropa Birliyi arasında daha səmərəli əlaqələrin qurulmasına töhfə verəcəyi vurğulanmışdır.

Konfransda «ASAN xidmət»ə həsr olunmuş video-çarx nümayiş etdirilmişdir.

Tədbirdə iştirak edən Azərbaycan Respublikası vergilər nazirinin müavini, üçüncü dərəcəli dövlət vergi xidməti müşaviri Sahib Ələkbərov öz çıxışında 2005-ci ildən ölkədə elektron hökumətin yaradılmağa başlandığı barədə məlumat vermişdir. Bildirilmişdir ki, uzun illər planlı təsərrüfat sistemində yaşamış Azərbaycanda əvvəllər vergi orqanları olmamış, müstəqilliyin ilk illərində əhalidə vergi mədəniyyətinin formalaşdırılmasına başlanmış, vergi qanunvericiliyi hazırlanmış, digər işlər görülmüşdür. Sahib Ələkbərov konfrans iştirakçılarına Azərbaycanın vergi sistemi, bu sahədə aparılan islahatlar barədə məlumat verərək qeyd etmişdir ki, əvvəllər biznesin qeydiyyatı üçün təxminən 2 aya qədər vaxt tələb olunurdusa, son iki ildə elektronlaşdırmanın tətbiqi nəticəsində bu proses cəmi bir neçə dəqiqə ərzində başa çatdırılır. Dünya Bankının son «Doing Business» hesabatına əsasən, bu gün Azərbaycan biznesin qeydiyyatı sahəsində ilk on dövlət sırasındadır. 2013-cü ildən ölkədə «Asan imza» layihəsinin tətbiqinə başlanılması və təhlükəsizlik sisteminin yaradılması isə istifadəçilərə mobil telefonlar vasitəsi ilə rəqəmsal uyğunluğun müəyyənləşdirilməsinə imkan yaratmışdır. «Asan imza» «Mobil hökumət» layihəsi çərçivəsində yeni nəsil elektron xidmətlərin tətbiqində inkişafın başlanğıc mərhələsi hesab edilir.

Estoniyanın İqtisadi İşlər və Rabitə Nazirliyinin dövlət informasiya sistemləri və rabitə üzrə baş katibinin müavini Taavi Kotka Azərbaycanla rabitə və informasiya texnologiyaları sahəsində əməkdaşlıqdan məmnunluğunu bildirmişdir. Enerji sahəsində əməkdaşlığın qarşılıqlı maraq üzərində qurulduğunu qeyd edən T.Kotka bunun bütün sahələri əhatə etdiyini, yeni texnologiyaların və bu sahədə aparılan islahatların insanların həyatının rahatlaşmasında, yeni iş yerlərinin, sərmayə sahələrinin, rəqəmsal bazarın yaradılmasında böyük rol oynadığını vurğulamışdır.



Azərbaycan Respublikasının rabitə və informasiya texnologiyaları nazirinin müavini Elmir Vəlizadə vətəndaşlara göstərilən xidmətlərdə İKT-dən istifadənin zəruriliyindən danışmış və Azərbaycandakı elektron xidmətlərin cari vəziyyəti ilə bağlı arayış vermişdir.

Avronest Parlament Assambleyasının həmsədri, bolqarıstanlı Yevgeni Kirilov və Avropa Parlamentində mühafizəkarlar və islahatçılar qrupunun başçısı Martin Kallanan konfransda çıxış edərək Azərbaycanda həyata keçirilən «Elektron hökumət» layihəsini yüksək qiymətləndirmiş, mövzu ilə bağlı fikirlərini bölüşmüşlər.

Sonra Azərbaycan Respublikası Vergilər Nazirliyi yanında ASAN Sertifikat Xidmətləri Mərkəzi və Estoniyanın Sertifikatlaşdırma Mərkəzi arasında Anlaşma Memorandumu imzalanmışdır. Memorandumu Azərbaycan tərəfdən vergilər nazirinin müavini Sahib Ələkbərov, Estoniya tərəfdən Sertifikat Mərkəzinin İdarə Heyətinin sədri Kalev Pihl imzalamışlar.

Konfrans öz işini 2 paneldə davam etdirmişdir. Müzakirələr panelinin 1-ci hissəsi «Mobil kimlik: insanların ölkələrarası əlaqələndirməsi. Estoniya və Azərbaycanın mobil kimlik sistemlərinin əməkdaşlığı» mövzusunda olmuşdur.

Azərbaycan Respublikası Vergilər Nazirliyinin Hüquq Baş İdarəsinin rəisi Samirə Musayeva «Asan imza» layihəsi haqqında təqdimatla çıxış edərək «Mobil hökumət»in «Elektron hökumət» ideyasının gerçəkləşdirilməsində növbəti mərhələ olduğunu vurğulamışdır. «Asan imza»nın hansı zərurətdən doğduğu, vətəndaşlara hansı rahatlıqlar gətirdiyi faktlarla izah edilmişdir. S.Musayeva Vergilər Nazirliyinin «Asan imza»nı öz xidmətlərinə necə inteqrasiya etdiyini və buna bağlı olan digər xidmətləri də təqdim etmiş, mobil kimliyin gələcəkdə bütün sahələrdə tətbiq olunmasının qaçılmazlığını vurğulamışdır.

«Signwise»ın yaradıcısı və icraçı direktoru Tiit Anmann elektron imzanın texniki tərəfləri barədə məlumat vermişdir. Onun sözlərinə görə, növbəti elektron inqilab «imza inqilabı» olacaqdır.

«Gemalto Solutions» şirkətinin satış direktoru Remi Belluar Azərbaycana səfərinin təəssüratları barədə danışaraq elektron sahədə əldə olunmuş nailiyyətləri təqdir etdiyini söyləmişdir. Çıxışını satış və xidmət sahələrində rəqəmsal alətlərin inteqrasiyası barədə fikirlərlə davam etdirən natiq müxtəlif ölkələrdə elektron xidmətlərin necə həyata keçirildiyini müqayisəli şəkildə göstərmişdir.

«Signwise»ın nümayəndəsi Liisi Yurgen isə Azərbaycanın «Elektron imza» Qanunu ilə Avropa Birliyinin «Elektron imza» Direktivi arasında paralel müqayisələr aparmışdır.

Elektron hökumətlə bağlı ikinci müzakirə panelində Azərbaycan Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin nümayəndəsi İsbəndiyar Əliyev iştirakçıları «Elektron hökumət» layihəsinin həyata keçirilməsinin cari vəziyyəti barədə məlumatlandırmış, «ASAN xidmət»in şöbə müdiri Azad Cəfərli isə təmsil etdiyi qurumun fəaliyyətinin insan hüquqları kontekstində təhlilini vermişdir. «Cybernetica»nı təmsil edən Arne Ansper ölkələrarası əməkdaşlıq, Azərbaycan Vergilər Nazirliyinin baş idarə rəisi İlkin Vəliyev elektron vergi sistemlərində şəffaflıq, Avropa İnnovasiya və Texnologiyalar İnstitutunun idarə heyətinin üzvü Linnar Viik isə əməkdaşlığın gələcək perspektivləri barədə danışmışlar.

# «Şou-biznes nümayəndələrinin bir qismi heç də nümunəvi vergi ödəyicisi deyil...»



Vergilər Nazirliyinin Operativ nəzarət idarəsinin rəisi İlham Əmirəliyevlə müsahibə

***- İlham müəllim, inkişaf etmiş ölkələrdə fərdi əməklə məşğul olan şəxslərin vergi uçotuna alınmasına və onların vergi öhdəliklərinə əməl etmələrinə xüsusi diqqət yetirilir. Azərbaycanda müstəqil fəaliyyət göstərən şəxslərin könüllü olaraq vergi öhdəliklərinə əməl etmələri qənaətbəxş hesab oluna bilərmi?***

- Bütün dünyada gəlir və mənfəət vergiləri büdcə daxilolmalarının əsas mənbələri hesab olunur. Muzdlu işçilərin əməkhaqlarından vergi tutulmasının inzibatçılığı ilə bağlı ölkəmizdə ciddi problemlər yoxdur. Fərd muzdlu əsaslarla deyil, sahibkar kimi fəaliyyət göstərirsə, qanunvericiliyə görə, vergi idarəsində uçota durmalıdır və öz gəlirindən qanuna müvafiq şəkildə vergi ödəməlidir. Təəssüf ki, bu gün Azərbaycanda fərdi əməklə məşğul olan şəxslərin vergiyə cəlb olunması sahəsində bir sıra subyektiv problemlər mövcuddur. Bəzi xidmət növləri üzrə fərdi qaydada sahibkarlıqla məşğul olan şəxslər vergi orqanlarında uçota durmadan fəaliyyət göstərir və dövlət büdcəsinə vergi ödəməkdən yayınırlar. Bununla yanaşı, vergi orqanlarında uçotda olan ödəyicilərin də bir qismi dövlət büdcəsinə ödəməli olduqlarından xeyli az vergi ödəyirlər.

***- Vergi ödəmədiklərinə görə xüsusi seçilən təbəqədən söz düşəndə müğənnilər xatırladılır. Bu sahədə vəziyyət necədir?***

- Hazırda uçotda şou-biznes fəaliyyəti ilə məşğul olan 844 vergi ödəyicisi vardır və onların heç də hamısı nümunəvi vergi ödəyiciləri deyil. Musiqi fəaliyyəti ilə məşğul olan sənət adamları, müğənnilər, əyləncə obyektlərində çıxış edən fərdi şəxslərlə bağlı mütəmadi olaraq maarifləndirmə və nəzarət tədbirləri həyata keçirilsə də, onların vergi öhdəliklərinə tam və könüllü əməletmə səviyyəsi aşağıdır. Dünyanın, xüsusilə də Avropanın inkişaf etmiş ölkələrində şou-biznes nümayəndələri vergi öhdəliklərinə necə əməl etmələri ilə daim ictimaiyyətin diqqət mərkəzindədirlər. Gəlirlərini gizlədən dünyaca məşhur insanlar - müğənnilər, aktyorlar, bəstəkarlar, bir sözlə, incəsənət nümayəndələri hansı ölkədə yaşamalarından asılı olmayaraq, həmişə ictimai qınağa məruz qalmaqla yanaşı, bir sıra hallarda hətta inzibati və digər məsuliyyətə də cəlb edilirlər.

Bizim bəzi tanınmış müğənnilərimiz vətənpərvərlik mövzusunda mahnılar ifa edir, kliplər çəkdirir, televiziya ekranlarından düşmürlər, lakin onların dövlət büdcəsinə ödədikləri vergilərin məbləği heç də aldıqları qonorara uyğun olmur.

***- Bu sahəyə nəzarət hansı formada həyata keçirilir?***

- Ümumiyyətlə, musiqi, əyləncə və digər xidmət fəaliyyətləri ilə məşğul olan şəxslərin əldə etdikləri gəlirlərin uçotuna nəzarət Vergi Məcəlləsinin 32, 33, 34 və 36-cı maddələrinə uyğun həyata keçirilir. Həm şadlıq evləri, həm də musiqi xidməti göstərən şəxslərlə müvafiq izahat işləri aparılır, vergidən yayınan müğənnilərə xəbərdarlıqlar göndərilir. Musiqiçilərin, o cümlədən müğənnilərin şadlıq evlərində fəaliyyətinə nəzarət vergilər nazirinin əmri ilə təsdiq edilmiş və Ədliyyə Nazirliyində dövlət qeydiyyatına alınmış «Musiqi, əyləncə və digər xidmət fəaliyyəti ilə məşğul olan şəxslərin əldə etdikləri gəlirlərin uçotuna nəzarətin həyata keçirilməsi və gəlirlərin «Qeydiyyatı kitabı»nın doldurulması Qaydaları»na əsasən həyata keçirilir. Həmin qaydalara görə, musiqiçilərin əldə etdikləri gəlirlərin vergidən yayındırılmasının qarşısının alınması məqsədilə şənlik mərasimlərinin keçirildiyi bütün şadlıq evləri və digər əyləncə obyektləri xüsusi «Qeydiyyat kitabı» ilə təmin edilmişdir. «Qeydiyyat kitabı» ərazi üzrə aidiyyəti vergi orqanı tərəfindən nömrələnir, qaytanlanır, möhürlənir və bu kitabda hər bir musiqiçinin və digər əyləncə xidməti göstərən şəxsin ifasına başlamazdan əvvəl qeydlər aparılır. Müvafiq vergi orqanları hər ay ərazi üzrə istirahət, əyləncə, iaşə və digər obyektlərdə keçirilmiş tədbirlərdə ayrı-ayrı musiqiçilərin, əyləncə və digər xidmətlər göstərən şəxslərin iştirakı barədə «Qeydiyyat kitabı»nda olan məlumatları toplayb icmallaşdırırlar.

***- Bu sahədə gəlirlərin vergidən yayındırılması hansı formada baş verir?***

- Burada əsas problem müğənnilərin əldə etdikləri gəlirləri «Qeydiyyat kitabı»nda düzgün əks etdirməmələri, hətta göstərdikləri və imzaları ilə təsdiq etdikləri gəlirlərlə rüblük bəyannamələrdə qeyd olunan gəlir məbləğləri arasındakı uyğunsuzluqlarla bağlıdır. Müğənnilərin bir şənlik mərasimindən əldə etdiklərinə gəlirlərin onların bəyan etdikləri rüblük gəlirdən dəfələrlə çox olması barədə məlumatlar var.

Araşdırmalar göstərir ki, istər Bakı şəhərində, istərsə də respublikamızın digər bölgələrində fəaliyyət göstərən istirahət, əyləncə, ictimai iaşə və digər obyektlərdə bəzi hallarda «Qeydiyyat kitabı»nın aparılmasına lazımi diqqət yetirilmir, çıxış edən müğənnilərin aldıqları qonorarların cüzi bir hissəsi burada əks olunur. Müğənnilərin iştirak etdiyi tədbirlərin həm sayı, həm də onlara ödənilən qonorarların məbləği bir çox hallarda şübhə doğurur. Halbuki gündəlik müşahidələrin nəticələri və kütləvi informasiya vasitələrində yer alan məlumatlar el şənliklərində musiqiçilərə ödənilən məbləğlərin qat-qat artıq olduğunu söyləməyə əsas verir. Bəzi informasiya saytları hətta bir sıra müğənnilərin el şənliklərində tam, yaxud qismən (1 saat, yarım saat və s.) iştirakı üçün nəzərdə tutulan məbləğləri dəqiqliklə göstərirlər. Bu məlumatlar vergitutma bazası kimi qəbul edilməsə də, vergilərin dövlət büdcəsindən yayındırılmasına şərait yaradanlar - istər gəlir əldə edənlər, istərsə də bu məbləği ödəyənlər dövlət və xalq qarşısında öz məsuliyyətlərini anlamalıdırlar.

***- Öz gəlirlərini vergidən yayındıran həmin şəxslərə nə demək istərdiniz?***

- Vergidən yayınan bütün şəxslərə bildirmək istəyirəm ki, onların fəaliyyəti daim nəzarətdə saxlanacaqdır. Hər kəs vergi orqanına təqdim etdiyi bəyannamələrdə öz gəlirləri barədə məlumatı düzgün göstərməlidir. Əks təqdirdə, məsələn, sual şou-biznes nümayəndələri ilə bağlıdırsa, Vergi Məcəlləsinin 67-ci maddəsinə görə, qeydiyyat kitablarına əsasən müəyyənləşdirilmiş faktiki gəlir məbləğləri təqdim olunmuş bəyannamələrin göstəriciləri ilə üzləşdiriləcək və vergidən yayındırılmış məbləğlər kameral hesablama aparılmaqla büdcəyə bərpa olunacaqdır. Bu isə büdcədən yayındırılmış vergi məbləğinin həcmindən asılı olaraq təkcə ciddi inzibati tədbirlərin həyata keçirilməsi ilə deyil, qanunvericiliklə nəzərdə tutulmuş digər daha sərt tədbirlərin də görülməsilə nəticələnəcəkdir. Kimin hansı dərəcədə məşhurluğundan asılı olmayaraq, vergiləri tam və vaxtında ödəmək öhdəliyi hamı üçün eynidir. Bunu bir daha vurğulamaq istəyirəm ki, «Qeydiyyat kitabı»nda göstərilən gəlir məbləğlərinin azaldılması üçün hər iki tərəf - həm bu gəliri əldə edən, həm də onu ödəyən şəxslər məsuliyyət daşıyırlar. Buna məhəl qoymayanlar isə gec-tez ciddi sanksiyalarla, eləcə də digər məsuliyyətə cəlbetmə tədbirlərilə üzləşə bilərlər.

KİV nümayəndələri də bu cür faktlara münasibətdə özlərini kənara çəkməməlidir: vergi yayındıran şəxslər ciddi ictimai qınaq obyektinə çevrilsə, yəqin ki, bundan dövlətin büdcəsi və son nəticədə ölkə vətəndaşları qazanmış olar.



Akif Musayev
Azərbaycan Respublikası vergilər nazirinin müşaviri

Rakurs

# Azad iqtisadi zonalar

Son dövrlərdə dünya iqtisadiyyatında baş verən maraqlı yeniliklərdən biri dövlətlər tərəfindən öz ərazilərində azad iqtisadi zonaların yaradılmasıdır. Bu iqtisadi yenilik dünyanın bir çox ölkələrində geniş yayılmışdır.

Azad iqtisadi zona dedikdə, ölkə daxilində elə bir coğrafi ərazi nəzərdə tutulur ki, digər yerlərlə müqayisədə həmin ərazidə fəaliyyət göstərən şirkətlər tərəfindən qanunvericiliklə müəyyən edilmiş ümumi təsərrüfat rejimindən fərqli daha əlverişli rejim tətbiq olunur.

Tarixdə ilk dəfə olaraq azad iqtisadi zonaların rəsmi anlayışı 1973-cü ildə Yaponiyanın Kioto şəhərində imzalanmış Konvensiyada öz əksini tapmışdır. Həmin Konvensiyaya əsasən, hər hansı ərazi o vaxt azad iqtisadi zona hesab edilə bilər ki, həmin əraziyə gətirilən mallar vergilərdən, gömrük rüsumlarından azad edilmiş olsun. Bu da o deməkdir ki, azad iqtisadi zonaya xaricdən gətirilən mallar ölkəyə idxal kimi bəyan olunmur. Bununla belə, qanunlar mal sahiblərini və investorları mövcud iqtisadiyyat qaydalarına tabe olmaqdan azad etmir. Sadəcə, həmin şəxslər üçün qaydalara əməletmə rejimi nisbətən yüngülləşdirilmiş olur.

Azad iqtisadi zonaların meydana çıxmasının ilk vaxtlarından başlayaraq onların yaradılmasının iki konseptual əsası olmuşdur. Bunlardan biri ərazi prinsipinə, digəri isə funksional prinsipə əsaslanır. Hər iki prinsipin mahiyyət etibarı ilə eyni olmasına baxmayaraq, onların tətbiqinə dair iki fərqli yanaşma mövcuddur. Birinci yanaşmaya görə, güzəştlərdən və stimullardan yalnız xüsusi ərazidə yerləşən müəssisə və təşkilatlar istifadə edə bilərlər. İkinci yanaşmaya görə isə sahibkarlıq fəaliyyətinin həyata keçirildiyi yerdən asılı olmayaraq, güzəştlər və stimullar yalnız müəyyən fəaliyyət növü üçün nəzərdə tutulur.

Ümumiyyətlə, dünya təcrübəsi göstərir ki, azad iqtisadi zonaların təşkilində və bu zonalarda fəaliyyətin göstərilməsində müxtəlif məqsədlər ola bilər. Həmin məqsədləri yeddi qrupda ümumiləşdirmək olar. Birinci qrup ölkənin iqtisadiyyatının dünyada gedən beynəlxalq əmək bölgüsü prosesində iştirakının təmin edilməsini, rəqabət qabiliyyətli məhsul istehsal edilərək onların dünya bazarında satışa çıxarılmasını və ölkənin valyuta gəlirlərinin artırılmasını nəzərdə tutur. İkinci qrupa azad iqtisadi zonalar vasitəsilə daxili bazarın yüksək keyfiyyətli və ilk növbədə, idxalı əvəz edən yerli məhsullarla təmin edilməsi aiddir. Üçüncü qrup məqsədlər azad iqtisadi zonaların yaradılmasında turizm, mədəniyyət və sanatoriya-kurort sahələrinin inkişaf etdirilməsini nəzərdə tutur. Dördüncüsü azad iqtisadi zonalar vasitəsi ilə elmi-texniki tərəqqinin, qabaqcıl texnologiyaların istehsal prosesində tətbiqini sürətləndirir. Beşinci qrupa daxil olan məqsədlər ölkədə yüksək peşəkarlığa malik işçilərin, mühəndislərin və idarəçilik üzrə kadrların hazırlanmasını nəzərdə tutur. Altıncısı, ölkədə hər hansı ərazinin və ya istehsal sahəsinin iqtisadi inkişafının stimullaşdırılması ilə bağlıdır. Nəhayət, yeddinci qrupa aid məqsədlər regional iqtisadiyyatın modernləşdirilməsini, iqtisadiyyatın idarə olunmasının inzibati metodlarından bazar metodlarına keçidin təmin olunmasını nəzərdə tutur. Buna misal olaraq, Çində yaradılan azad iqtisadi zonaları göstərmək olar. Onların yaradılmasında əsas məqsəd sosial eksperimental xarakter daşıyaraq iqtisadiyyatın bütün sahələrində inzibati metodlardan bazar metoduna keçidin təmin edilməsi idi. Bu məqsədlərlə yaradılmış azad iqtisadi zonaların fəaliyyəti sahəsində əldə edilmiş təcrübə də göstərir ki, bazar iqtisadiyyatı prinsipləri dövlət mülkiyyəti forması ilə müqayisədə daha səmərəli və dinamik prinsip olaraq qalır.

*Azad iqtisadi zonaların təşkili zamanı qarşıya qoyulan məqsədlərə tam nail olmaq üçün bu sahəyə müəyyən stimulların və güzəştlərin verilməsi əsas məsələlərdəndir*

Qeyd etmək lazımdır ki, azad iqtisadi zonaların təşkili zamanı qarşıya qoyulan məqsədlərə tam nail olmaq üçün bu sahəyə müəyyən stimulların və güzəştlərin verilməsi əsas məsələlərdəndir. Adətən, iqtisadi nəzəriyyədə azad iqtisadi zonalar üçün dörd qrup güzəştlər müəyyən edilir: idxal-ixrac rüsumlarının aşağı dərəcə ilə tətbiqini və yaxud onlardan tam azad olunma; büdcədən subsidiyaların verilməsi və ya aşağı faizlərlə kreditlərin ayrılması; sahibkarlıq fəaliyyətinin ayrı-ayrı növlərinə mənfəət, gəlir, əmlak vergiləri üzrə güzəştlərin verilməsi; azad iqtisadi zonalara giriş-çıxış rejiminin və burada qeydiyyat məsələlərinin sadələşdirilməsi.

İqtisadiyyatın modernləşdirilməsində, rəqabətqabiliyyətli məhsulların istehsalında və yüksək texnologiyaların yaradılmasında azad iqtisadi zonaların rolu nəzərə alınaraq, Azərbaycanda da bu sahənin inkişaf etdirilməsi prioritet istiqamətlərdən sayılır. Bu məqsədlə Azərbaycan Respublikasının 14 aprel 2009-cu il tarixli «Xüsusi iqtisadi zonalar haqqında» Qanununda bu zonalar üçün xüsusi gömrük və vergi rejimləri müəyyən olunmuşdur. Həmin Qanuna əsasən, xüsusi iqtisadi zonanın ərazisində sahibkarlıq fəaliyyəti göstərən şəxslər, digər ödəyicilərdən fərqli olaraq, 0,5 faiz dərəcə ilə sadələşdirilmiş vergi ödəyirlər. Həmin şəxslər, fiziki şəxslərin muzdlu işlə əlaqədar gəlirindən vergi istisna olmaqla, vergi qanunvericiliyi ilə müəyyən edilmiş digər vergiləri ödəməkdən azaddırlar. Eyni zamanda, innovasiyaların istehsal proseslərində tətbiqinin gücləndirilməsi məqsədilə 1 yanvar 2013-cü ildən Vergi Məcəlləsinə edilmiş dəyişikliklərə əsasən, sənaye və texnologiyalar parklarında fəaliyyət göstərən sahibkarlıq subyektlərinə mənfəət, gəlir, əmlak, torpaq vergiləri və ƏDV üzrə müvafiq güzəştlər verilmişdir.

# Yanvar ayının makroiqtisadi göstəriciləri

*2014-cü ilin ilk ayında Azərbaycanda məhsul istehsalı və xidmət sahələrində, habelə məhsula və idxala xalis vergilər nəzərə alınmaqla 4,4 milyard manatlıq ümumi daxili məhsul (ÜDM) istehsal edilmişdir. Bu göstərici keçən ilin müvafiq dövrünün səviyyəsindən 0,8% yüksəkdir.*

Dövlət Statistika Komitəsindən verilən məlumata görə, əlavə dəyərin 60,4%-i məhsul istehsalı sahələrində, 32,9%-i xidmət sahələrində istehsal olunmuş, 6,7%-i isə məhsula və idxala xalis vergilərin payına düşmüşdür. Orta hesabla ölkənin hər bir sakininə düşən ÜDM istehsalı 465,6 manat olmuşdur. Əlavə dəyərin 53,8%-i qeyri-neft sektorunda istehsal olunaraq ötən ilin yanvarı ilə müqayisədə 7,7% artmış, neft sektorunun göstəricisi isə 6% azalmışdır.

***Sənayenin qeyri-neft sektorunda məhsul istehsalı***

Ötən ay sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fiziki şəxslər 2,8 milyard manatlıq, yaxud 2013-cü ilin müvafiq dövrü ilə müqayisədə 4% az sənaye məhsulu istehsal etmişlər. Buna əsas səbəb məhsul istehsalının mədənçıxarma bölməsində 4,6%, o cümlədən neft hasilatında 5,1% azalması olmuşdur. Bununla yanaşı, əmtəəlik qaz hasilatı 6,7% artmışdır. İqtisadi fəaliyyət növləri təsnifatına uyğun olaraq sənaye məhsulunun 72,7%-i mədənçıxarma bölməsində, 19,7%-i emal bölməsində, 7%-i isə elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı bölməsində, 0,6%-i su təchizatı, tullantıların təmizlənməsi və emalı bölməsində istehsal olunmuşdur. Sənayenin emal bölməsinin məhsullarından qida məhsulları istehsalı 0,8%, geyim istehsalı 39,8%, toxuculuq sənayesi məhsulları istehsalı 22,3%, kimya sənayesi məhsulları istehsalı 26%, hazır metal məmulatların istehsalı 14,6%, tikinti materialları istehsalı 7,8%, metallurgiya sənayesi məhsulları istehsalı 44,9%, maşın və avadanlıqların istehsalı 2%, sair nəqliyyat vasitələri istehsalı 3,5 dəfə artmışdır. Sənayenin elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı bölməsində məhsul istehsalı 1%, elektrik enerjisi istehsalı isə 3% artaraq 2,1 milyard kVt-saat olmuşdur. Su təchizatı, tullantıların təmizlənməsi və emalı bölməsində məhsul istehsalı 7,2% artmışdır. Sənayenin qeyri-neft sektorunda məhsul istehsalı 5,6% artmış, neft sektorunda isə 5,2% azalmışdır.

***Tikinti kompleksi***

2014-cü ilin yanvarında ölkənin tikinti kompleksində 660,9 milyon manat məbləğində, yaxud ötən ilin yanvarı ilə müqayisədə 6,3% çox vəsaitdən istifadə edilmiş və onun 378,5 milyon manatı tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunmuşdur. Əsas kapitala yönəldilmiş vəsaitin 444,5 milyon manatı yerli mənbələrdən daxil olmuş, 58,8%-i (388,6 milyon manatı) məhsul istehsalı obyektlərinin inşasına xərclənmişdir. Müxtəlif mənbələrdən ayrılmış vəsaitlər hesabına yanvar ayında 120,5 min kv.metr yaşayış evləri, 360 şagird yerlik ümumtəhsil məktəbləri, 50 yerlik məktəbəqədər təhsil müəssisələri, Bakı şəhərində Sağlamlıq Mərkəzi, Qəbələ rayonunda «Tufan» Dağ-Xizək Yay-Qış İstirahət Kompleksinin birinci mərhələsi, Göygöl rayonunda Olimpiya İdman Kompleksi və Gənclər Mərkəzi istifadəyə verilmişdir.

**Sənayenin emal bölməsində artım**




***Əmtəə dövriyyəsi və ticarət***

2013-cü ilin yanvar ayı ilə müqayisədə bu ilin ilk ayında ölkədə əmtəə dövriyyəsi 9,3%, pullu xidmətlərin həcmi isə 7,8% artmış, ölkə sakinləri ticarət şəbəkəsindən 900,3 milyon manatlıq qida məhsulları, içkilər və tütün məmulatı və 765,6 milyon manatlıq qeyri-ərzaq malları almışlar.

**R.SADIQOV**

## Hüquq məsləhətxanamız



Samirə Musayeva
Azərbaycan Respublikası
Vergilər Nazirliyinin Hüquq Baş İdarəsinin rəisi
vergi ödəyicilərinin suallarına cavab verir

## «Asan ödəniş» sistemi

**Mən «Asan ödəniş» sistemindən istifadə etmək istəyirəm, ancaq onun barəsində məlumatım azdır. Hazırda bu sistemdən istifadə etmək mümkündürmü?**

«ASAN xidmət» mərkəzlərində həyata keçirilən xidmət növlərinin və elektron xidmətlərin genişləndirilməsi və «Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 706 nömrəli Fərmanında dəyişikliklər edilməsi barədə Prezidentin 11 fevral 2014-cü il tarixli 110 nömrəli Fərmanı ilə «ASAN ödəniş» sisteminin yaradılması ilə bağlı tapşırıq verilmişdir.

«Asan ödəniş» sistemi inzibati cərimə növündə inzibati tənbeh tətbiq edilməsi barədə qərarların elektron qaydada göndərilməsini və inzibati cərimələrin, məhkəmə qərarlarının icrası ilə əlaqədar ödənilməli olan vəsaitlərin elektron qaydada (o cümlədən «Asan imza» vasitəsilə) ödənilməsini təmin edən çoxfunksiyalı ödəniş sistemidir.

Fərmanın 2-ci hissəsinə əsasən, «Asan ödəniş» sistemi aşağıdakıları təmin etməlidir:

- inzibati cərimə növündə inzibati tənbeh tətbiq edilməsi barədə qərarların və xüsusi texniki vasitələrin köməyi ilə aşkar olunan yol hərəkəti qaydaları əleyhinə olan inzibati xətaların törədilməsinin foto və ya video görüntülərinin vətəndaşların elektron ünvanlarına, mobil telefon nömrələrinə elektron qaydada göndərilməsini;
- inzibati cərimə növündə inzibati tənbeh tətbiqetmə haqqında qərarın icra müddətinə nəzarət edilməsini və müddətlərin bitməsi barədə məlumatlandırılmasını;
- inzibati cərimələrin mobil telefon aparatları vasitəsilə elektron qaydada ödənilməsini.

Bunların icrası ilə bağlı isə fərmanın 3-cü hissəsində Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinə Azərbaycan Respublikasının Vergilər Nazirliyi ilə birlikdə «Asan ödəniş» sisteminin təşkili və fəaliyyətinin təmin edilməsi, eyni zamanda aşağıdakı ödənişlərin həmin sistem vasitəsilə həyata keçirilməsinin aidiyyəti mərkəzi icra hakimiyyəti orqanları ilə birlikdə təşkil olunması tapşırılmışdır:

- inzibati cərimələrin yanacaqdoldurma məntəqələrində, avtomobil dayanacaqlarında, ticarət mərkəzlərində və əhalinin intensiv istifadə etdiyi digər ictimai yerlərdə xüsusi ödəmə terminalları ilə ödənilməsini;
- yol hərəkəti qaydaları əleyhinə olan inzibati xətaların törədilməsinə görə tətbiq edilən inzibati cərimələrin mobil telefon aparatları ilə ödənilməsini;
- məhkəmə qərarlarının icrası ilə əlaqədar ödənilməli olan vəsaitlərin xüsusi ödəmə terminalları ilə ödənilməsini.

Artıq fərmana uyğun olaraq, aidiyyəti dövlət orqanları tərəfindən tapşırıqların icrası ilə bağlı tədbirlər görülməyə başlanılmışdır. Beləliklə, fərmanla müəyyən edilmiş müddətdə vətəndaşların «Asan ödəniş» vasitəsilə ödəniş etmələri mümkün olacaq.

Suallarınızı redaksiyamızın ünvanına: AZ 1073, Bakı ş., Landau küç., 16 və ya **s.musayeva@taxes.gov.az** elektron poçt ünvanına göndərə bilərsiniz.

## RƏQƏMLƏRİN DİLİ İLƏ

- Xəzər dənizinin Azərbaycan sektorundakı «Şahdəniz-2» layihəsinin ikinci mərhələsindən etibarən Gürcüstan hər il tranzit üçün **1 milyard kubmetr** qaz alacaq.
- 2014-cü ilin yanvar ayında Azərbaycana **6477** ədəd avtomobil idxal olunub ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə **9,1%** azdır.
- Ötən ay Azərbaycanda kənd təsərrüfatı istehsalı **3,3%** artıb.
- Ölkədə muzdla işləyənlərin orta aylıq əməkhaqqı 2013-cü ildə əvvəlki ilə nisbətən **6,2%** yüksələrək **423 manat**, əhalinin hər nəfərinə düşən gəlirləri isə 2014-cü ilin yanvar ayında ötən ilin müvafiq dövrünə nisbətən **2,5%** artaraq **279,7 manat** olmuşdur.
- 2014-cü il yanvarın 1-nə ölkənin maliyyə-kredit təşkilatları tərəfindən hüquqi və fiziki şəxslərə **15,4 milyard manat** məbləğində kredit ayrılmışdır.
- 2012-ci illə müqayisədə 2013-cü ildə Azərbaycanda daimi yaşamaq üçün gələnlərin sayı **44,1%** artmışdır.
- Ötən il «İpək yolu» nəqliyyat dəhlizinin Azərbaycan ərazisindən **59,0 milyon ton** və ya əvvəlki illə müqayisədə **3,8%** çox yük, **285,2 milyon nəfər** və ya **9,3%** çox sərnişin daşınmışdır.

# Azərbaycan və Moldovanın vergi orqanları arasında əlaqələr güclənir

*Vergilər Nazirliyinin nümayəndələri təcrübə mübadiləsi aparmaq məqsədilə fevral ayının 12-dən 14-dək Moldova Respublikasının Maliyyə Nazirliyi yanında Baş Dövlət Vergi Müfəttişliyinin dəvəti ilə bu ölkəyə işgüzar səfər etmişlər.*

Moldovanın paytaxtı Kişinyov şəhərində keçirilən tədbirlər zamanı «Vergi sistemində korrupsiya halları ilə mübarizə», «Vergi inzibatçılığı», «Sadələşdirilmiş verginin tətbiqi», «Elektron xidmətlər: ƏDV depozit hesabı, elektron vergi hesab-fakturası, elektron bəyannamələr, AVİS-in tətbiqi, elektron qeydiyyat» mövzularında təqdimatlar olmuşdur.

***Vergilər Nazirliyinin Daxili təhlükəsizlik Baş İdarəsinin rəisi Taryel Quliyev*** «Vergi sistemində korrupsiyaya qarşı mübarizə» mövzusunda çıxış edərək korrupsiyaya şərait yaradan halların aradan qaldırılması və şəffaflığın artırılması istiqamətində həyata keçirilən tədbirlər barədə danışmışdır. Qeyd olunan məsələlərlə bağlı iki mərhələdə işlərin görüldüyünü vurğulayan idarə rəisi, birinci mərhələdə təbliğat-təşviqat və maarifləndirmə işlərinə geniş yer verildiyini, bu məqsədlə aidiyyəti qurumların, beynəlxalq və qeyri-hökumət təşkilatlarının, mətbuat nümayəndələrinin iştirakı ilə görüşlər keçirildiyini, burada səsləndirilmiş təklif və tövsiyələrin Vergilər Nazirliyinin müvafiq fəaliyyət proqramlarında öz əksini tapdığını vurğulamışdır. Bildirilmişdir ki, həyata keçirilən tədbirlərin ikinci mərhələsində vergi nəzarətində informasiya-kommunikasiya texnologiyalarının inteqrasiyası üzrə əsaslı işlər görülür, vergi orqanları ilə vergi ödəyiciləri arasındakı birbaşa münasibətlərdə, o cümlədən vergi uçotu, vergi xidməti və vergi nəzarəti sahələrində yaranan təmas nöqtələrinin minimuma endirilməsinə xidmət edən və bu münasibətlərin keyfiyyətcə yeni müstəviyə keçməsinə təkan verən elektron xidmətlərin sayı artırılır. Bununla da vergi ödəyicilərinin elektron xidmətlərdən istifadə faizində əhəmiyyətli yüksəlişə nail olunmuş, həyata keçirilən işləri beynəlxalq təşkilatlar da təqdir etmişlər.

T.Quliyevin təqdimatında korrupsiyaya qarşı mübarizə sahəsində mövcud qanunvericilik bazası və vaxtaşırı olaraq qanunvericilik aktlarına edilən əlavə və dəyişiklik barədə məlumat verilmişdir. Bildirilmişdir ki, Vergilər Nazirliyində korrupsiyaya qarşı mübarizəni həyata keçirən struktur vahidin fəaliyyəti daim gücləndirilir. Ölkədə korrupsiya hallarına qarşı mübarizə üçün metodiki baza mövcuddur. Vətəndaşlara şərait yaradılmışdır ki, hüquqpozmalarla bağlı rəhbərliyə müxtəlif formalarda müraciət edə bilsinlər. Vergilər nazirinə birbaşa müraciət, vergi orqanı əməkdaşlarının fəaliyyətində korrupsiya və digər hüquqpozma halları, vergi orqanı əməkdaşlarının qeyri-etik davranışı barədə Vergi Apelyasiya Şurasına müraciətlər və video-qəbullar, bu baxımdan, əvəzsiz rol oynayır. Bu istiqamətdə işlərin daha da dərinləşdirilməsi və vətəndaşları maarifləndirmək məqsədilə məlumatlandırıcı vəsaitlərdən geniş istifadə olunur.

T.Quliyev Vergilər Nazirliyinin Tədris Mərkəzində korrupsiyaya qarşı mübarizə sahəsində keçirilən treninqlər, şəffaflıq məqsədilə tətbiq edilən elektron xidmətlər, korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq qurumlarla əməkdaşlıq barədə danışaraq bildirmişdir ki, Azərbaycan Respublikası Tailandın Banqkok şəhərində Beynəlxalq Antikorrupsiya Akademiyasının təsis olunması haqqında müqaviləyə tərəfdar olan dövlətlərin II Assambleyasında növbəti il üçün bu qurumun rəhbər orqanı olan büroya üzv seçilmişdir.

***Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin şöbə rəisi Yunis Quliyev*** «Azərbaycan Respublikasının vergi sistemi və onun inkişaf perspektivləri» və «Azərbaycanda sadələşdirilmiş verginin tətbiqi» mövzularında təqdimatlarla çıxış edərək ölkəmizdə vergi sisteminin yaradılması, inkişafı, vergi qanunvericiliyinin və vergi inzibatçılığının təkmilləşdirilməsi, o cümlədən partnyorluq münasibətlərinin tətbiqi, e-audit sahəsində görülmüş işlər, beynəlxalq əlaqələr və vergi sisteminin gələcək inkişaf istiqamətləri barədə məlumat vermişdir. Sərnişin və yükdaşıma, mənzil tikintisi sahəsində sadələşdirilmiş verginin tətbiqi ilə bağlı suallar cavablandırılmışdır.

«Elektron xidmətlər: ƏDV depozit hesabı, elektron vergi hesab-fakturası, elektron bəyannamələr, AVİS-in tətbiqi, elektron qeydiyyat» mövzularında təqdimatları isə iştirakçılar maraqla qarşılamışlar.

***İqtisadi təhlil və sahibkarlıq subyektlərinin dövlət qeydiyyatı Baş İdarəsinin şöbə rəisi İlqar Xəlilov*** Azərbaycanda vergi ödəyiciləri üçün tətbiq edilən elektron xidmətlərin sayının 51-ə çatdırılması və bu istiqamətdə təkmilləşdirmə işlərinin davam etdirilməsi haqqında geniş təqdimatla çıxış etmişdir. Elektron vergi hesab-fakturalarının tətbiqi, elektron bəyannamələrin təqdim edilməsi ilə bağlı görülən işlər haqqında məlumat verilmişdir.

Təqdimat zamanı vergi sistemində korrupsiya halları ilə mübarizə və bu sahədə aparılan vergi siyasətinin istiqamətləri, korrupsiya tərkibli ərizə və şikayətlərin araşdırılma prinsipləri, daxili nəzarət tədbirlərinin keçirilməsi formaları və metodları, vergi ödəyicilərinə göstərilən xidmətlərin çeşidlərinin genişləndirilməsi, vətəndaşların vergi mədəniyyətinin yüksəldilməsi, vergi ödəyicilərindən daxil olan zənglərin cavablandırılması prinsipləri və tələblərinə xüsusi yer verilmişdir. Görüş iştirakçılarının sadələşdirilmiş verginin mahiyyəti və tətbiqi, ƏDV depozit hesabının mahiyyəti, tətbiqi və üstün cəhətləri barədə verdikləri suallar cavablandırılmışdır.

Moldova Respublikasının Maliyyə Nazirliyi yanında Baş Dövlət Vergi Müfəttişliyinin rəisi İon Prisakarunun xahişi ilə Azərbaycan Respublikası Vergilər Nazirliyinin nümayəndə heyəti ilə «Gkonomiçeskoe obozrenie», «EC Onomist» və «Moldova Suverana» qəzetlərinin jurnalistləri arasında görüş təşkil olunmuşdur.

Proqram üzrə Moldova Respublikasının Maliyyə Nazirliyi yanında Baş Dövlət Vergi Müfəttişliyi tərəfindən Straşeni rayonu Dövlət Vergi Müfəttişliyinə təşkil olunmuş səfər çərçivəsində rayon Vergilər Müfəttişliyinin rəhbərliyi, şöbə rəisləri və işçiləri ilə fikir mübadiləsi aparılmışdır.



***Moldova Respublikasının Maliyyə Nazirliyi yanında Baş Dövlət Vergi Müfəttişliyinin rəisi İon Prisakaru*** ölkəmizin nümayəndə heyətini qəbul edərək aparılan müzakirələrin səmərəli və işgüzar şəraitdə keçirildiyini bildirmişdir. Qeyd edilmişdir ki, Azərbaycan Respublikasının Vergilər Nazirliyində bütün sahələrdə aparılan islahatlar daim maraq doğurur və bunun nəticəsi olaraq, qarşılıqlı təcrübə mübadiləsinə və belə görüşlərin mütəmadi keçirilməsinə ehtiyac yaranır. Bildirilmişdir ki, Moldovanın vergi sistemində bir sıra xidmətlər və yeniliklər Azərbaycan Respublikasının Vergilər Nazirliyinin təcrübəsinin öyrənilməsi nəticəsində tətbiq edilmişdir. Cənab İon Prisakaru dəvətin qəbul edilməsinə və təcrübə mübadiləsinə yaratdığı şəraitə görə Azərbaycan Respublikası Vergilər Nazirliyinin rəhbərliyinə dərin təşəkkürünü ifadə etmişdir.

**Rəşad SADIQOV**

# «E-manat» ödəmə şəbəkəsi genişləndirilir

*Artıq iki ildir ki, «E-manat» brendi ilə Azərbaycanın elektron ödənişlər bazarına daxil olmuş «Modenis» MMC paytaxtda e-köşklərin sayını artırmağı, regionlarda ödəmə terminalları şəbəkəsi qurmağı planlaşdırır. Bu məqsədlə 2014-cü il qurum tərəfindən «e-manat» ödəmə sistemi şəbəkəsinin genişlənməsi ili» elan edilib.*

2014-cü və qarşıdakı illərdə ölkədə elektron hesablaşmaların həcminin artırılması barədə müvafiq qurumlarla əməkdaşlıq proqramı hazırlayan müəssisə maliyyə sektorunda yeni layihələr təqdim etməyə, ödəmə terminalları vasitəsilə nağdsız ödəniş növlərinin çeşidini artırmağa hazırlaşır. Hazırda kommunal xidmətlər, mobil rabitə, internet, bank kreditlərinin ödənişi, bank kartları və xidmətləri həyata keçirən «E-manat» idarəetmə sisteminə digər ödənişlərin inteqrasiya olunması üçün «Modenis» MMC dövlət qurumları ilə danışıqlar aparır. Şirkətin biznesin inkişafı üzrə meneceri Vüsal Süleymanov bildirib ki, hazırda paytaxtda 800-ə yaxın ödəmə terminalı fəaliyyət göstərir, ilin sonuna kimi bu rəqəmin ən azı 2000-ə çatdırılması gözlənilir. İndiyədək Gəncə, Biləsuvar, Saatlı, Şəmkir, Göygöl, Samux, Goranboy, Naftalan, Daşkəsən, Gədəbəy, Tovuz, Yevlax, Qazax, Ağstafa, Hacıqabul, Kürdəmir və digər regionlarda (ümumilikdə 18 rayon və şəhər) öz terminallarını quraşdıran təşkilat başqa bölgələrdə də «E-manat» şəbəkəsini qurmağı planlaşdırır.

2013-cü ildə «Azəriqaz» və «Azərsu»nun «smart-kart» tipli sayğaclarının «E-manat» sisteminə tam inteqrasiyası başa çatdırılıb və kartı olan abonentlərin 100%-i bu sistemlə ödəniş edir. Ölkədə fəaliyyət göstərən hər üç mobil operatorun «E-manat» şəbəkəsinə qoşulması təmin olunub. Bir müddət əvvəl «Bakıelektrikşəbəkə»nin də bu sistemə inteqrasiya olunması sayəsində elektrik enerjisi üzrə borcların terminallarda ödənilməsi imkanı yaranıb. Hazırda mobil rabitə operatorları, İKT və telekommunikasiya sahəsində fəaliyyət göstərən şirkətlər, iri biznes strukturlarının xidmətləri üzrə ödəniş haqlarının bu sistemə cəlb olunması üzərində iş gedir.

2014-cü ildə ən mühüm modellərdən biri birbaşa «E-manat» şəbəkəsinə internet vasitəsilə daxil olub xidmətləri həyata keçirməkdir. Yeni layihəyə əsasən, müştərilər terminallarla yanaşı, «E-manat»ın internet ünvanına daxil olmaqla əməliyyatlar apara biləcəklər. Bundan başqa, digər bir layihə banklarla birgə əməkdaşlıq çərçivəsində kreditlərin, banklararası köçürmələrin həyata keçirilməsi, «Netmoney», «Portmant» layihələrin tətbiqidir. Bu istiqamətdə 4-5 bank və bir maliyyə-kredit təşkilatı ilə danışıqlar müsbət nəticə ilə başa çatıb və yaxın günlərdə kredit ödənişlərinin e-köşklərdə aparılması mümkün olacaq. İlkin mərhələdə müştərilər ölkə daxilində pul köçürmələrini bu köşklərin köməyi ilə həyata keçirəcəklər və sonrakı mərhələdə digər köçürmə əməliyyatlarının da sistemə inteqrasiyası reallaşacaq. «Contact» və «QIWI» ödəniş şirkətləri ilə əldə olunmuş razılığa əsasən, MDB ölkələri ilə valyuta transferləri və pul köçürmələri həyata keçiriləcək.

«Modenis» MMC-nin əsas strateji məqsədlərindən biri də «elektron ödənişlər bazarında meydana çıxan texniki problemləri operativ şəkildə həll etmək üçün əlavə tədbirlər görməkdir. V. Süleymanovun bildirdiyinə görə, müştərilərin rahatlığını təmin etmək, xidmətin səviyyəsinin maksimum dərəcədə yüksəldilməsinə nail olmaq, terminallarda hər hansı texniki problemlə üzləşdikdə onu dərhal aradan qaldırmaq əsas prinsiplərdəndir. Hazırda bu istiqamətdə əməli tədbirlər həyata keçirilir.

**Elbrus CƏFƏRLİ**

# Regional inkişafla bağlı yeni dövlət proqramının əsas hədəfləri

*İqtisadiyyat və Sənaye Nazirliyi (İSN) regionların sosial-iqtisadi inkişafı ilə bağlı yeni - üçüncü dövlət proqramının hazırlığı üzərində işləri yekunlaşdırıb.*

yatın rəqabətqabiliyyətliliyinin daha da gücləndirilməsi, intellektual-texnoloji səviyyənin yüksəldilməsi, qeyri-neft sektorunun dinamik inkişaf etdirilməsi və qeyri-neft məhsullarının ixracının genişləndirilməsi, sosial yönümlü siyasətin davam etdirilməsi nəzərdə tutulur.

və quruculuq, əhalinin təhlükəsizliyi, ekologiya və təbii sərvətlərdən istifadə, mənzil təsərrüfatı, turizmin inkişafı kimi istiqamətlər də əsas hədəflər sırasındadır.

*«Əminəm ki, bu günə qədər görə bilmədiyimiz işləri biz növbəti 5 il ərzində görəcəyik və beləliklə, regionlar qarşısında duran bütün vəzifələr icra ediləcəkdir».*

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*

İSN-in Regionların inkişafı dövlət proqramları şöbəsinin müdiri Sahib Məmmədovun sözlərinə görə, 2014-2018-ci illəri əhatə edəcək üçüncü regional inkişaf proqramı əvvəlki dövlət proqramlarının məntiqi davamı olacaq. Sənəd iqtisadi və sosial inkişaf, sosial infrastrukturun yeniləşməsinin tam başa çatdırılması, yeni innovativ iqtisadi layihələrin tətbiqi kimi mühüm istiqamətləri əhatə edəcək.

Proqram çərçivəsində regionlardakı sosial-iqtisadi inkişafı sürətləndirmək üçün mövcud əmək ehtiyatlarının səfərbər edilməsi, təbii və iqtisadi potensialdan daha səmərəli istifadə olunması nəzərdə tutulur. İcra olunmuş əvvəlki iki proqramdan doğan bir sıra yeni iqtisadi və sosial tələblərin müasir dövrün çağırışlarına əsaslanaraq yerinə yetirilməsi də diqqət mərkəzində olacaq. Yeni dövlət proqramında ortamüddətli dövr üzrə müəyyən olunmuş strateji inkişaf istiqamətlərinə əsasən, ölkədə makroiqtisadi sabitliyin qorunub saxlanılması, iqtisadi tənzimləmənin alət və mexanizmlərinin səmərəliliyinin artırılması, iqtisadi potensialın gücləndirilməsi və milli iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin daha da gücləndirilməsi, intellektual-texnoloji səviyyənin yüksəldilməsi, qeyri-neft sektorunun dinamik inkişaf etdirilməsi və qeyri-neft məhsullarının ixracının genişləndirilməsi, sosial yönümlü siyasətin davam etdirilməsi nəzərdə tutulur.

Yeni dövlət proqramı layihəsində ölkə regionlarında mühüm infrastruktur layihələrinin reallaşdırılması ilə yanaşı, iqtisadiyyatda sənayeləşmə siyasəti, kənd təsərrüfatının inkişafı üçün rayonlar arasında və rayonlar üzrə ixtisaslaşmanın aparılması, kənd təsərrüfatının intensiv inkişafının təmin edilməsi, aqrar sahədə yeni texnologiyaların tətbiqi və İKT məsələləri, əsas ərzaq məhsulları üzrə daxili tələbatın yerli istehsal hesabına ödənilməsi və ölkənin ərzaq təhlükəsizliyinin gücləndirilməsi ilə bağlı tədbirlərin istiqamətləri də müəyyən olunub.

Qarşıdakı 4 il ərzində vergi və pul-kredit siyasəti, kənd təsərrüfatı və sənaye sahələrinin inkişafı, təhsil, gənclər və idman, səhiyyə və mədəniyyət müəssisələrinin inşası və yenidən qurulması, yol təsərrüfatı və nəqliyyat, elektrik enerjisi təchizatı, sosial müdafiə, meliorasiya və irriqasiya, rabitə xidmətlərinin yaxşılaşdırılması, su təchizatının və kanalizasiya xidmətlərinin təkmilləşdirilməsi, istilik və qaz təchizatı, abadlıq və quruculuq, əhalinin təhlükəsizliyi, ekologiya və təbii sərvətlərdən istifadə, mənzil təsərrüfatı, turizmin inkişafı kimi istiqamətlər də əsas hədəflər sırasındadır.

Üçüncü regional inkişaf proqramının başlıca məğzi qeyri-neft iqtisadi modelinin tətbiqinə nail olmaqdır. Bu məqsədlə regionlardakı ehtiyatların istehsal imkanlarını artırmaq, istifadə olunmamış iqtisadi və təbii resursları istehsala cəlb etmək, elmtutumlu rəqabətqabiliyyətli milli istehsalı formalaşdırmaq, elmin istehsala inteqrasiyasını daha da gücləndirmək nəzərdə tutulur.

Azərbaycanın hədəfi yaxın yeddi-səkkiz ildə ümumi daxili məhsulun həcmini iki dəfə artırmaqdır. Proqnozlara görə, iqtisadi artım qeyri-neft sektorunun, sənayenin və informasiya-kommunikasiya texnologiyalarının inkişafını təmin edəcək. Bunun üçünsə regionlardakı iqtisadi ehtiyatlara yeni texnoloji yanaşma tələb olunur.

S.Məmmədov hesab edir ki, yeni proqramın həyata keçirilməsi ilə ölkə əhalisinin həyat səviyyəsi yaxşılaşacaq, yoxsulluğun və işsizliyin minimum azalması, ölkədə orta təbəqənin xüsusi çəkisinin artması mümkün olacaq, əhaliyə göstərilən sosial xidmətlərin məzmunu müasirləşdirilməklə keyfiyyəti artırılacaq.

**Elbrus CƏFƏRLİ**

# Biznesə başlama sahəsində mütərəqqi islahatlar

*Fevralın 21-də bəzi qanunvericilik aktlarında hüquqi şəxslərin dövlət qeydiyyatı ilə bağlı edilmiş dəyişikliklərdən irəli gələn vəzifələrin izahı məqsədilə Vergilər Nazirliyinin qeydiyyat və uçot strukturlarının əməkdaşları üçün təlim keçirilmişdir.*

İqtisadi təhlil və sahibkarlıq subyektlərinin dövlət qeydiyyatı Baş İdarəsinin Dövlət qeydiyyatı və uçotun təşkili idarəsinin rəisi İlkin Həsənov bildirmişdir ki, təlimin məqsədi qeydiyyat və uçot sahəsi üzrə qanunvericiliyə edilmiş əlavə və dəyişikliklərin hansı zərurətdən irəli gəldiyini izah etmək, həyata keçirilməli olan tədbirlər barədə vergi xidməti əməkdaşlarını maarifləndirməkdir. Qeyd olunmuşdur ki, nazirliyin təşəbbüsü ilə son illər sahibkarlıq subyektlərinin qeydiyyatı və uçotu sahəsində həyata keçirilən mütərəqqi islahatlar beynəlxalq miqyasda yüksək dəyərləndirilməklə ölkəmizin biznes nüfuzunun yüksəlməsinə səbəb olmuşdur. Vurğulanmışdır ki, Dünya Bankı və Beynəlxalq Maliyyə Korporasiyası tərəfindən hazırlanan və biznes mühitinin əlverişliliyi üzrə qiymətləndirməni özündə əks etdirən «Doing Business - 2014» hesabatında Azərbaycanın «Biznesə başlama» indikatoru üzrə 6 pillə irəliləyərək 189 ölkə arasında 10-cu yerdə qərarlaşması həyata keçirilmiş islahatların səmərəli nəticəsidir.

*Aparılan islahatlar beynəlxalq miqyasda yüksək dəyərləndirilməklə ölkəmizin biznes nüfuzunun yüksəlməsinə səbəb olmuşdur*

İdarənin baş hüquqşünası Hüsniyyə Abdullayeva Vergilər Nazirliyinin təklifləri əsasında 2014-cü il 22 noyabr tarixdə «Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövət reyestri haqqında» Azərbaycan Respublikası Qanununa, habelə Mülki və İnzibati xətalar məcəllələrinə qeydiyyat və uçot məsələləri ilə bağlı edilmiş əlavə və dəyişikliklər barədə geniş məlumat vermişdir. Bildirilmişdir ki, təkliflərin hazırlanması zamanı təsisçiləri tərəfindən könüllü ləğv olunması barədə qərar qəbul edilmiş kommersiya fəaliyyəti ilə məşğul olan hüquqi şəxslərin dövlət qeydiyyatının ləğvi sahəsində beynəlxalq təcrübədən geniş istifadə olunmuşdur.

Məlumat verilmişdir ki, qanunvericilik aktlarında hüquqi şəxslərin könüllü ləğvi prosedurlarının yerinə yetirilməsi müddətlərinin və ardıcıllığının dəqiqləşdirilməsini, kreditorların tələblərini qarşılamaq məqsədilə təsisçilərin məsuliyyətinin müəyyənləşdirilməsini, habelə ləğv edilən hüquqi şəxsin təsisçilərinin hüquqlarının tam ödənilməsini təsbit edən müddəalar əksini tapıb: «Hüquqi şəxslərin könüllü ləğvi prosedurlarının yerinə yetirilməsi zamanı proseslərin ardıcıllığı və aparılma müddətlərinin dəqiq əks etdirilməməsi bir çox hallarda ləğvetmənin başa çatdırılmasında ləngimələrə səbəb olurdu. Bu baxımdan, Mülki Məcəllədə hüquqi şəxsin ləğvi şərtlərini müəyyən edən maddələrin yeni əlavələrlə verilməsi məqsədəmüvafiq hesab edilmişdir. Bundan başqa, bəzən hüquqi şəxsin ləğvetmə ilə əlaqədar yalan bəyanat verməsi ləğvetmənin düzgün aparılmamasına, prosesin müddətinin süni şəkildə uzadılmasına, aktivlərin düzgün paylanmamasına, xərclərin artmasına səbəb olurdu. Bu halların qarşısının alınması üçün ləğvetmə qərarından əvvəl təsisçilərin (iştirakçıların) hüquqi şəxsin maliyyə vəziyyəti barədə rəsmi bəyanat qəbul etmələrini şərtləndirən müddəa qanuna daxil edilmişdir. Mülki Məcəlləyə edilmiş dəyişikliklərlə bağlı «Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında» Qanunun 16-cı maddəsinə dəyişiklik edilmişdir. Həmin maddədə ləğvetmə müddətləri və qeydiyyat orqanına təqdim edilməli sənədlərin siyahısı dəqiqləşdirilmişdir».

İqtisadi təhlil və sahibkarlıq subyektlərinin dövlət qeydiyyatı Baş İdarəsinin Dövlət qeydiyyatı və uçotun təşkili idarəsinin Dövlət qeydiyyatının təşkili şöbəsinin rəisi İftixar Axundov «Dövlət vergi orqanlarında kommersiya qurumlarının dövlət qeydiyyatının və vergi ödəyicilərinin uçotunun ləğv edilməsi Qaydaları»nda dəyişikliklər» mövzusunda təqdimatında qanunvericilikdə edilmiş dəyişikliklərlə əlaqədar Vergilər Nazirliyinin uçot və qeydiyyat strukturları qarşısındakı vəzifələrdən söz açmış, bu sahədə qaydaların tələblərinə ciddi şəkildə əməl edilməsinin zəruriliyini diqqətə çəkmişdir.

Sonda təlim iştirakçılarını maraqlandıran suallar cavablandırılmışdır.

**Samir MUSTAFAYEV**

# İşçilərlə əmək müqaviləsi bağlamayan işəgötürənlər ciddi cəzalandırılacaqlar

*İşəgötürənlərlə işçi arasında əmək müqaviləsinin imzalanmaması respublikamızın əmək bazarının ən ağrılı problemlərindən birinə çevrilib. Sahibkarlıq fəaliyyəti ilə məşğul olan bir çox özəl şirkətlərdə, ticarət və xidmət müəssisələrində vergi və sosial sığorta ödənişlərindən yayınmaq məqsədilə iş yerlərinin rəsmiləşdirilməməsi hallarına geniş təsadüf olunur. Bir çox hallarda muzdlu işlə əlaqədar əməkhaqqından tutulan gəlir vergisi hesabatlarında da göstərilən rəqəmlər real vəziyyəti əks etdirmir.*

***Problemin həlli ilə bağlı kompleks tədbirlər görülür***

Bu cür neqativ hallarla mübarizədə daha təsirli tədbirlərin görülməsi ilə bağlı ölkə başçısının verdiyi tapşırığın icrasını diqqət mərkəzində saxlayan Vergilər Nazirliyi digər dövlət qurumları ilə birgə əmək münasibətlərinin rəsmiləşdirilməsi sahəsində sistemli iş aparır. Vergilər nazirinin 18 iyul 2012-ci il tarixli əmri ilə «İşəgötürənlər tərəfindən iş yerlərinin rəsmiləşdirilməməsi hallarının qarşısının alınması istiqamətində görüləcək işlərə dair» Tədbirlər Planı təsdiq olunmuş və bu sahəyə çevik nəzarəti təmin etmək üçün Qərargah yaradılmışdır. Ötən il respublikamızda 57853 sahibkar tərəfindən 200973 işçi ilə əlavə əmək müqaviləsi bağlanılmışdır ki, bu nəticənin alınmasına nazirlik tərəfindən həyata keçirilmiş kompleks tədbirlər də öz təsirini göstərmişdir.




2013-cü il ərzində vergi orqanları tərəfindən həyata keçirilmiş operativ nəzarət tədbirləri zamanı 5 min 244 vergi ödəyicisi tərəfindən 3 min 371 nəfər fiziki şəxsin əmək müqaviləsi bağlamadan işə cəlb edildiyi aşkarlanmış və bu faktlarla bağlı müvafiq tədbirlər görülmüşdür.

Qanunvericiliyin imkan verdiyi inzibati vasitələrlə yanaşı, maariflənləndirmə tədbirlərindən də geniş iştifadə edilir: əmək müqaviləsinin imzalanmasının zəruriliyi, yaratdığı üstünlüklər, işçilərin pensiya təminatındakı rolu, qanunvericilikdə aparılmış dəyişikliklər və digər mühüm məqamlar insanlara geniş izah olunur.

***Cəza tədbirləri sərtləşdirilib***

Artıq ictimaiyyət arasında ümumi fikir formalaşır ki, əmək müqavilələrinin bağlanmaması vergidən yayınmanın əsas səbəblərindən biridir və bu, dövlət büdcəsinə daxilolmalara mənfi təsir göstərir. Qanunvericilik bazasında bu məsələ ilə bağlı edilmiş son əlavə və dəyişikliklərə əsasən, cəzalar da sərtləşdirilir. İşəgötürənlər tərəfindən fiziki şəxslərin əmək müqaviləsi bağlamadan hər hansı işə cəlb edilməsi qanunvericiliklə müəyyən olunmuş qaydada məsuliyyətə səbəb olur. İnzibati Xətalar Məcəlləsinin 53.1-ci maddəsinə edilmiş son dəyişikliklərə görə, Azərbaycan Respublikasının Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi (kontrakt) bağlamadan işəgötürənlər tərəfindən fiziki şəxsin hər hansı işin (xidmətin) yerinə yetirilməsinə cəlb olunmasına görə vəzifəli şəxslər 3000 manatdan 5000 manatadək, hüquqi şəxslər 20 min manatdan 25 min manatadək cərimə edilir.

Vergi Məcəlləsinin 58.10-cu maddəsinə edilmiş dəyişikliyə görə, Azərbaycan Respublikasının Əmək Məcəlləsində nəzərdə tutulmuş qaydada əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb olunması yolu ilə onların gəlirlərinin gizlədilməsinə (azaldılmasına) şərait yaradıldığına görə işəgötürənə hər bir belə şəxs üzrə 1000 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir.

Cinayət Məcəlləsinə edilən son dəyişikliklərə görə isə işçilərlə əmək müqaviləsi bağlamadan onları işə cəlb edənləri 7 min manatdan 10 min manatadək və ya 3 il müddətinə azadlıqdan məhrumetmə cəzası gözləyir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Əmək Müfəttişliyi Xidmətinin rəisi İdris İsayevin sözlərinə görə, qanunvericilikdə belə bir sərt cəza tədbirinin yer almasının məqsədi bütün işəgötürənləri öz işçiləri ilə əmək müqaviləsi bağlamağa sövq etməkdir: «Bu gün Azərbaycanda işəgötürənlərin heç də hamısı əmək müqaviləsi bağlayarkən əmək qanunvericiliyində müəyyən olunmuş tələblərə riayət etmirlər. Bəzən tələb olunan göstəricilər əmək müqaviləsində əks etdirilmir. Bəzi hallarda isə əmək müqaviləsinin nüsxəsi işçiyə təqdim edilmir. Nəticədə işçi əmək müqaviləsi üzrə öz hüquqlarından məlumatsız olur. İşəgötürən isə bundan sui-istifadə edir. Elektron informasiya sistemi fəaliyyətə başladıqdan sonra bütün işçilər öz öhdəlikləri ilə tanış olmaq və işəgötürəndən də öz haqlarını tələb etmək imkanı qazanıblar».

***Əmək bazarı daha da canlanacaq***

Təbii ki, cəza vermək məsələnin ən yaxşı həll yolu sayılmır. «Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyasinda müəyyən edilmiş vəzifələrdən irəli gələrək əmək bazarındakı vəziyyət ciddi təhlil olunur, vergi baxımından daha rasional addımların atılmasının müəyyənləşdirilməsi üzərində iş aparılır. Ödəyiciləri cərimələməklə, onlara inzibati təzyiq göstərməklə yox, daha çox səmərəli iqtisadi mexanizmlər tətbiq etməklə ödənişlərin vaxtında və tam yerinə yetirilməsi üçün ardıcıl işlər görülür. Başlıca məqsəd əmək bazarını daha da canlandırmaq, ölkədə yaradılan əlverişli biznes şəraitində işçilərin sosial hüquqlarını qorumaq, vergi və digər ödənişlərin vaxtlı-vaxtında həyata keçirilməsinə, bu ödənişlər hesabına dövlət büdcəsinin artımına nail olmaqdır.

**Rəşad SADIQOV**

# İstehlakçı hüquqlarının qorunması

Azərbaycanda istehlakçı hüquqlarının qorunması istiqamətində aparılan işlər istehlak bazarında hüquq pozuntularının aradan qaldırılması və buna qarşı qabaqlayıcı tədbirlər görməklə həyata keçirilir. İqtisadiyyat və Sənaye Nazirliyinin (İSN) Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidməti



tərəfindən malların keyfiyyətinə və təhlükəsizliyinə istehsal və satış mərhələlərində nəzarət olunur, yararsız malların dövriyyədən çıxarılaraq satışının qarşısının alınması məqsədi ilə tədbirlər görülür, istehlakçıların təhlükəsiz və keyfiyyətli məhsullarla təmin olunması, ticarət norma və qaydalarına əməl edilməsi, istehlak bazarının keyfiyyətsiz və saxta mallardan qorunması, istehlakçıların hüquqlarının etibarlı müdafiəsi və onların bu sahədə maarifləndirilməsi məqsədilə ardıcıl işlər görülür. Ötən il xidmət tərəfindən istehlakçıların maarifləndirilməsi məqsədilə 16 adda 220 mindən çox buklet, sahibkarların istehlakçıların hüquqlarının qorunması sahəsində vəzifələrinə dair 6 adda 22 mindən çox yaddaş kitabçası hazırlanaraq paylanmışdır. Həyata keçirilmiş nəzarət tədbirləri zamanı mənşəyi məlum olmayan, saxlama müddəti ötmüş, etiketlənməsi, keyfiyyət və təhlükəsizlik göstəriciləri normativ sənədlərin tələblərinə uyğun olmayan 44,4 ton müxtəlif növ ərzaq malları satışdan çıxarılaraq məhv edilmişdir.

İSN-dən bildirilir ki, istehlakçılar hüquqlarının pozulması halları ilə rastlaşdıqda nazirliyin «195-2» Telefon Məlumat Mərkəzinə, 498-15-01 və 498-15-04 nömrəli telefonlar vasitəsilə Antiinhisar Siyasəti və İstehlakçıların Hüquqlarının Müdafiəsi Dövlət Xidmətinə məlumat verə bilərlər. Daxil olmuş müraciətlərə operativ şəkildə baxılır və qanunvericiliyə uyğun müvafiq tədbirlər görülür.

**AYTƏN**



Mehdi Babayev
«Professional MÜHASİB» jurnalının baş redaktoru, audit üzrə mütəxəssis

Audit

## Məcburi auditdən keçməli olan təsərrüfat subyektləri tərəfindən auditorun müəyyən edilməsi və auditə hazırlıq

**Əvvəli ötən sayımızda**

***Auditə hazırlıq.*** Auditin aparılmasına qədər sifarişçi təsərrüfat subyekti auditin aparılması üçün zəruri olan hazırlıqları yerinə yetirməlidir. «Auditor xidməti haqqında» Azərbaycan Respublikasının Qanununun (irəlidə «Qanun» adlanır) 17-ci maddəsinə görə, təsərrüfat subyektinin rəhbərliyi (mülkiyyətçisi) auditin aparılması üçün zəruri olan bütün sənədləri, registrləri və hesabatları auditora təqdim etməlidir və onların düzgünlüyünə görə məsuliyyət daşıyır. Auditor müəssisəyə dəvət olunana qədər, müəssisənin dövriyyəsindən asılı olmayaraq, bütün mühasibat sənədlərinin tarix ardıcıllığı ilə qruplaşdırılmış formada ayrı-ayrı qovluqlarda yığılması (tikilməsi) məsləhət görülür.

Kassa qovluğunda kassa mədaxil orderi, kassa məxaric orderi, pulun verilməsinə dair əmr və ya hər hansı göstəriş sənədi, ümumi qaydada tərtib olunan əməkhaqqının, mükafatın, yardımların, qanunvericiliklə nəzərdə tutulan əməkhaqqına əlavələrin ödəniş cədvəli, pulun malsatanın (iş görənin, xidmət göstərənin) nümayəndəsinə verilməsini əsaslandıran qarşı tərəfin etibarnaməsi, lazım olduğu halda pulu alan şəxsin şəxsiyyət vəsiqəsinin surəti, müəssisədaxili tələb olduğu halda kassirin tərtib etdiyi özəl hesabat və digər pul sənədləri tikilir. Məsləhət görülür ki, bilavasitə alışlara və satışlara aidiyyəti olan sənədlər kassa qovluğuna tikilməsin.

Bank qovluğunda bank çıxarış vərəqələri, ödəniş taşırıqları, ödəniş üçün təqdim olunan hesab-fakturalar tikilir.

Alış qovluğunda malsatanlarla bağlanılan «alqı-satqı» müqaviləsi, müqaviləyə əlavə və dəyişikliklər, malsatan tərəfin təqdim etdiyi qaimə-faktura, müəssisəyə xidmət göstərən icraçı təsərrüfat subyekti ilə bağlanılan «xidmətlərin göstərilməsi haqqında» müqavilə, həmin müqaviləyə əlavə və dəyişikliklər, icraçı tərəfindən tərtib olunaraq təqdim olunan akt (xidmətlərin göstərilməsinə dair akt) və ya xidmətlərin göstərilməsini təsdiq edən hesab-faktura, malların (işlərin, xidmətlərin) alınması ilə bağlı malsatanlar (xidmət göstərənlər, iş görənlər) tərəfindən göndərilmiş elektron vergi hesab-fakturaları və digər sənədlər tikilir.

Təhtəlhesab sənədlər qovluğunda müəssisənin təhtəlhesab şəxsi (maddi-məsul şəxsi) tərəfindən yerinə yetirilmiş icra-tapşırığın nəticəsi olaraq apardığı nağd ödənişləri təsdiq edən pul sənədləri, o cümlədən malsatandan aldığı mala görə etdiyi ödəniş üçün malsatan tərəfindən təhtəlhesab şəxsə verilən kassa mədaxil orderi, o cümlədən NKA çeki, mədaxil qəbzi, vergi və sosial sığorta haqlarının ödənilməsini təsdiq edən bank qəbzləri, ezamiyyə ilə bağlı ezamiyyə vərəqəsi, ezamiyyə əmri, ezam olunanın hesabatı, yol biletləri, mehmanxana qəbzləri və digər aidiyyəti sənədlər tikilir.

Əməkhaqqı qovluğunda aylar üzrə əməkhaqqının hesabalanması cədvəlləri, tabellər, əməkhaqqı və digər ödənişlərlə bağlı verilən əmrlərin surətləri, əmək müqavilələri, əmək münasibətləri və ödənişləri ilə əlaqədar digər sənədlər tikilir.

Hesabatlar qovluğunda vergi bəyannamələri, aralıq mühasibat hesabatları, illik maliyyə hesabatları, sosial sığorta hesabatları, statistika və məşğulluq orqanlarına təqdim olunan hesabatlar, yoxlama və nəzarət funksiyasını yerinə yetirən dövlət orqanları tərəfindən aparılan yoxlamalarla əlaqədar aktlar tikilir.

Əsas vəsaitlərin ləğvi və amortizasiya sənədləri, istehsal (xidmət, iş) məsrəfləri sənədləri, sair gəlir və xərc sənədləri, mənfəətin bölüşdürülməsi sənədlərini də ayrı-ayrı qovluqlarda tikmək olar.

Bütün qovluqlarda sənədlərin rəhbər və digər məsul şəxslər tərəfindən imzalanması və möhürlə təsdiq olunması bir daha yoxlanılaraq çatışmazlıqlar aradan qaldırılmalıdır. Qovluqlarda tarix ardıcıllığına tam əməl olunmaqla sənədlərin düzülüşünə əməl olunmalıdır ki, auditin aparılması və audit araşdırmaları asan, operativ, səhvsiz və qısa müddətdə baş tutsun.

Müəssisədə tətbiq olunan mühasibat proqramı üzrə auditi əhatə edən son dövrə mühasibat uçotu məlumatları tam işlənilməli və müvafiq dövrlər üzrə real qalıqlar müvafiq hesabatlarda əks etdirilən göstəricilərə uyğun olmalıdır.

Müəssisənin uçot siyasətinə uyğun olaraq tətbiq olunan daxili nəzarət qaydaları, sənəd dövriyyəsi, xüsusi nəzarətdə olan əməliyyatlar, maddi-məsul şəxslər, iddialı məsələlər, filiallar və nümayəndəliklər barədə məlumatları əks etdirən sənədlər, həmçinin hüquqi sənədlərin (nizamnamə, dövlət qeydiyyatı üzrə reyestrdən çıxarış, VÖEN şəhadətnaməsi) surətlərini hazırlamaq lazımdır.

yeni nəşrlər

## Bələdiyyə vergilərinə aid metodiki vəsait

*Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsi tərəfindən «Bələdiyyələrin vergi sistemi» adlı kitab nəşr olunmuşdur.*




Yerli özünüidarəetmə orqanlarının əməkdaşları ilə yanaşı, böyük oxucu kütləsi üçün nəzərdə tutulmuş kitabda bələdiyyə sisteminin mahiyyətinin və formalaşmasının nəzəri və iqtisadi əsasları, yerli idarəetmə qurumlarının fəaliyyətinin səmərəliyinin artırılmasında vergilərin və ödənişlərin rolu və digər məsələlər barədə geniş maarifləndirici məlumatlar yer almışdır.

Metodiki vəsait hesab olunan kitabda, həmçinin, bələdiyyə sisteminin iqtisadi əsasları, maliyyə-büdcə fəaliyyəti, bələdiyyə vergilərinin hesablanmasının forma və qaydaları ilə bağlı məlumatlar öz əksini tapmışdır.

Nəşrdə dövlət hakimiyyət orqanlarının vergi və yığımları təyin etmək səlahiyyətlərindən, ərazinin təsərrüfat inkişafının məqsədlərinə münasibətdən, yerli vergi və ödənişlərin büdcəyə hesablanması və ödəniş texnikasının xüsusiyyətlərindən, tətbiq edilən dərəcələrin spesifikliyindən bəhs edilmiş, ödəmə mənbəyindən asılı olaraq yerli vergi və yığımların müəyyən edilməsinin əlamətləri təsnifləşdirilmişdir. Kitabda qeyd olunmuşdur ki, vergi dövlətin və bələdiyyələrin fəaliyyətinin maliyyə təminatı məqsədi ilə vergi ödəyicilərinin mülkiyyətində olan pul vəsaitlərinin özgəninkiləşdirilməsi şəklində dövlət büdcəsinə və yerli büdcələrə köçürülən məcburi, fərdi, əvəzsiz ödənişdir. Yerli vergilər (bələdiyyə vergiləri) Vergi Məcəlləsi ilə müəyyən olunmuş və müvafiq qanuna uyğun bələdiyyələrin qərarlarına əsasən tətbiq edilən və bələdiyyələrin ərazilərində ödənilən vergilər hesab olunur. Bələdiyyələr tərəfindən tətbiq edilən digər məcburi ödənişlər isə müvafiq qanunla təsbit olunmuşdur. Yerli vergilərin (bələdiyyə vergilərinin) dərəcələri vergi qanunvericiliyində təsbit olunmuş hədlər daxilində müəyyən edilmişdir. Vergi qanunvericiliyinə uyğun olaraq, bələdiyyələr öz ərazilərində vergi ödəyicilərinin ayrı-ayrı kateqoriyalarını yerli vergilərdən tam və ya qismən azad etmək, vergi dərəcəsini azaltmaq barədə qərar qəbul edə bilərlər.

Nəşrdə müvafiq qanunvericilik əsasında müəyyən edilmiş və məcburi xarakter daşıyan vergilərin növləri və yerli orqanlar tərəfindən tətbiq olunan ödənişlər, həmçinin tətbiq edilməsi mümkün olan ödənişlərlə bağlı metodiki tövsiyələrə də yer verilmişdir. Həmçinin, hüquqi və fiziki şəxslərin əmlak və torpaq vergilərinin formalaşmasının qaydaları, vergi ödəyiciləri və vergitutma obyektləri müəyyən edilmiş, vergilərin hesablanmasının şərtləri və xüsusiyyətləri göstərilmişdir. Vergi ödəyicilərinin uçotu, vergilərin ödənilməsi müddətləri, vergi dərəcələri və bu vergilərə tətbiq edilən güzəşt və azadolmalarla bağlı məlumatlar da kitabda öz əksini tapmışdır.

## Beynəlxalq uçotun aparılmasında tətbiq olunan qaydalar

Xanbaba Quliyev,
Auditorlar Palatasının üzvü

**4-cü MƏRHƏLƏ** *(davamı)*

Hörmətli oxucular, xatırlatmaq istəyirik ki, qəzetin 29.01.2014-cü il tarixli 04 (694)-cü sayında misal olaraq cədvəl şəklində 49 sayda əməliyyatlar göstərilmiş və həmin əməliyyatların 1-dən 20-dək olanlarının əməliyyat jurnalında əks etdirilməsi haqqında qəzetin 05.02.2014-cü il tarixli 05 (695)-ci sayında və 21-dən 39-dək olanlarının əməliyyat jurnalında əks etdirilməsi haqqında qəzetin 19.02.2014-cü il tarixli 07 (697)-cü sayında ikili yazılışlara dair tövsiyələr dərc edilmişdir. İndi isə qəzetin əvvəlki saylarında təqdim olunan əməliyyat jurnalının davamı olaraq ikili yazılış üsulu ilə əməliyyatların (40-dən 49-dək olanlarının) əməliyyat jurnalında aşağıdakı kimi əks etdirilməsi tövsiyə olunur (əməliyyatlar ümumi xarakler daşıdığına görə tarixləri əks etdirməyəcəyik):

### ƏMƏLİYYAT JURNALI

| № | Hesabın adı və əməliyyatın məzmunu | DEBET (məbləğ) | KREDİT (məbləğ) |
|---|---|---|---|
| 40 | 522, «Sosial sığorta və təminatlar üzrə öhdəliklər»<br>222, «Bank - milli valyuta ilə cari hesab»<br>Əməkhaqqından tutulan sosial sığorta haqqı milli valyutada bank hesabından DSMF-yə ödənilib | 300 | 300 |
| 41 | 533, «Əməyin ödənişi üzrə işçi heyətinə qısamüddətli kreditor borclar»<br>222, «Bank - milli valyuta ilə cari hesab»<br>İşçilərə əməkhaqqının bir hissəsi milli valyutada bank hesabından əməkhaqqı kartlarına yüklənib | 5000 | 5000 |
| 42 | 522, «Sosial sığorta və təminatlar üzrə öhdəliklər»<br>222, «Bank - milli valyuta ilə cari hesab»<br>22% hesablanmış sosial sığorta haqqının bir hissəsi milli valyutada bank hesabından DSMF-yə ödənilib | 1500 | 1500 |
| 43 | 537, «Faizlər üzrə qısamüddətli kreditor borcları»<br>222, «Bank - milli valyuta ilə cari hesab»<br>Kredit faizi tam olaraq milli valyutada bank hesabından ödənilib | 12660 | 12660 |
| 44 | 711, «Kommersiya xərcləri»<br>112, «Torpaq, tikil və avadanlıqlar – yığılmış amortizasiya»<br>Azalan qalıq metodu üzrə amortizasiya hesablanıb - avadanlıq (70000 x 25%) | 17500 | 17500 |
| 45 | 721, «İnzibati xərclər»<br>112, «Torpaq, tikil və avadanlıqlar – yığılmış amortizasiya»<br>Azalan qalıq metodu üzrə amortizasiya hesablanıb - mebel (25000 x 20%) | 5000 | 5000 |
| 46 | 601, «Satış»<br>801, «Ümumi mənfəət (zərər)»<br>«Satış» hesabının bağlanması | 383400 | 383400 |
| 47 | 801, «Ümumi mənfəət (zərər)»<br>711, «Kommersiya xərcləri»<br>«Kommersiya xərcləri» hesabının bağlanması | 35560 | 35560 |
| 47 | 801, «Ümumi mənfəət (zərər)»<br>721, «İnzibati xərclər»<br>«İnzibati xərclər» hesabının bağlanması | 15110 | 15110 |
| 47 | 801, «Ümumi mənfəət (zərər)»<br>751, «Maliyyə xərcləri»<br>«Maliyyə xərcləri» hesabının bağlanması | 12660 | 12660 |
| 47 | 801, «Ümumi mənfəət (zərər)»<br>701, «Satışın maya dəyəri»<br>«Satışın maya dəyəri» hesabının bağlanması | 273350 | 273350 |
| 48 | 901, «Cari mənfəət vergisi üzrə xərclər»<br>521, «Vergi öhdəlikləri»<br>Mənfəət vergisi hesablanıb (mənfəət vergisi xərcləri = (383400 - 336680) x 20% | 9344 | 9344 |
| 48 | 801, «Ümumi mənfəət (zərər)»<br>901, «Cari mənfəət vergisi üzrə xərclər»<br>«Cari mənfəət vergisi üzrə xərclər» hesabı bağlanır | 9344 | 9344 |
| 49 | 801, «Ümumi mənfəət (zərər)»<br>341, «Hesabat dövrünün xalis mənfəəti»<br>Mənfəət və zərər hesabı bağlanır (bölüşdürülməmiş mənfəətin məbləği) | 37376 | 37376 |

Növbəti dəfə isə əməliyyat jurnalında 49 sayda əməliyyata verilən ikili yazılışlar əsasında Baş kitabın tərtib olunması haqqında tövsiyələrimizi təqdim edicəyik.

vergi taqvimi

| FEVRAL | | | | | | |
|---|---|---|---|---|---|---|
| I | II | III | IV | V | VI | VII |
| | | | | | 1 | 2 |
| 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 |
| 10 | 11 | 12 | 13 | 14 | 15 | 16 |
| 17 | 18 | 19 | 20 | 21 | 22 | 23 |
| 24 | 25 | 26 | 27 | 28 | | |

**Qeyd:** *Verginin ödənilmə və bəyannamənin verilmə müddətinin sonuncu günü təqvimdə göy rənglə seçilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda, növbəti iş gününə keçirilmişdir.*

**Ödənilən vergi:**

17 fevral - «(5)»
20 fevral - «(1-1)», «3», «4», «8», «10.1», «10.2», «10.3»

**«(1-1)» - Gəlir vergisi (xüsusi notariuslar üzrə):** Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübdür.
Xüsusi notariuslar tərəfindən hər bir ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə gəlir vergisi hesablanmalı, hesablanmış vergi məbləği isə növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.
**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq qeydiyyatda olduğu vergi orqanına verməli və həmin müddətdə vergini dövlət büdcəsinə ödəməlidir.
**«4» - Aksiz vergisi:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və həmin müddətdə vergi orqanına bəyannamə verilməlidir.
**«(5)» - Əmlak vergisi:** Əmlak vergisi üzrə hesabat dövrü təqvim ilidir. Əmlak vergisi ödəyicisi olan hüquqi şəxslər cari vergi ödəmələri kimi hər rübün ikinci ayının 15-dən gec olmayaraq əvvəlki ildəki əmlak vergisinin 20 faizi həcmində dövlə büdcəsinə vergi ödəyirlər. Əvvəlki hesabat ilində əmlak vergisi ödəyicisi olmayan və növbəti ildə bu verginin ödəyicisi olan, habelə yeni yaradılmış və əmlak vergisi ödəyicisi olan hüquqi şəxslər əmlakın əldə edildiyi rübdən sonra hər rübün ikinci ayının 15-dən gec olmayaraq həmin əmlaka görə hesablanmalı olan illik əmlak vergisi məbləğinin 20 faizi miqdarında cari vergi ödəmələrini həyata keçirirlər. Cari vergi ödəmələri vergi ili üçün vergi ödəyicisindən tutulan verginin məbləğinə aid edilir.
**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayıdır. Mədən vergisinin ödəyiciləri hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verirlər. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.
**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdlu işlə əlaqədar ödəmə mənbəyində vergi tutan ƏDV və sadələşdirilmiş vergi ödəyicilərinin bu ödəmələr üzrə hesabat dövrü vergi ili, digər vergi ödəyicilərinin hesabat dövrü isə rübdür.
Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.
Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergilər barədə bəyannaməni ƏDV və sadələşdirilmiş verginin ödəyiciləri hesabat ilindən sonrakı ilin yanvar ayının 31-dən gec olmayaraq, digərləri isə hesabat rübü başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq vergi orqanına təqdim etməlidirlər.
**«10.2» - Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə aparılan ödəmələrdən ödəmə mənbəyində tutulan verginin hesabat dövrü rübdür.
Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməli və gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq bəyannaməni vergi orqanına təqdim etməlidirlər.
**«10.3» - Ödəmə mənbəyində tutulan digər vergilər**: ƏDV və sadələşdirilmiş verginin ödəyicilərinin muzdlu işlə əlaqədar aparılan ödəmələri istisna olmaqla, ödəmə mənbəyində tutulan digər vergilər üzrə hesabat dövrü rübdür.
Hüquqi şəxslər və fərdi sahibkarlar qeyri-dövlət pensiyaları və ödəmə mənbəyində vergiyə cəlb olunmalı olan digər ödəmələri verərkən bu gəlirlərdən vergini tutmalı, tutulmuş məbləği gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə köçürməli və həmin müddətdə də bəyannaməni vergi orqanına təqdim etməlidirlər.

beynəlxalq panoram

# IOTA-nın İcraiyyə Şurasının növbəti iclası keçirilmişdir

***Haaqa şəhərində Niderland Vergi Administrasiyasının ev sahibliyi ilə Avropadaxili Vergi Administrasiyaları Təşkilatının (IOTA) İcraiyyə Şurasının iclası keçirilmişdir.***

IOTA-nın İcraiyyə Şurasına üzv dövlətlərin vergi administrasiyalarının nümayəndələri və qurumun Katibliyinin iştirakı ilə keçirilmiş iclasda təşkilatın 2012-2017-ci illər üçün strategiyasına dair «Fəaliyyət hesabatı», layihə menecmenti üzrə çərçivə sənədinin təqdim edilməsi, «Vergi administrasiyası informasiya platforması» (TİP) layihəsinin «Fəaliyyət hesabatı», 2015-ci ilin iş planı (layihə), təşkilatın veb-saytının modernləşdirilməsi, 2013-2014-cü illər üzrə daxili audit, 2012-2013-cü illər üzrə daxili auditorların hesabatına dair rəy və təkliflər, eləcə də IOTA-nın 18-ci Baş Assambleyasına hazırlıq işləri barədə müzakirələr aparılmışdır. Azərbaycan Respublikası Vergilər Nazirliyinin nümayəndəsinin Assambleyada spiker və sessiyaların birinə moderatorluq etməsi müzakirə və qəbul olunmuşdur.

IOTA-nın İcraiyyə Şurasının nümayəndələri qarşılıqlı əməkdaşlıq məsələlərini müzakirə etmiş, Niderland Vergi Administrasiyasının fəaliyyəti ilə yaxından tanış olmuşlar. İcraiyyə Şurasının 92-ci iclasının Bakıda keçirilməsinə dair məsləhətləşmələr aparılmışdır.

İclasda ölkəmizi vergilər nazirinin beynəlxalq münasibətlər və vergi ödəyicilərinə xidmət sahələri üzrə müşaviri Ələkbər Məmmədov təmsil etmişdir.

# Beynəlxalq tədbirlərdə

■ Macarıstanın paytaxtı Budapeşt şəhərində Avropadaxili Vergi Administrasiyaları Təşkilatının (IOTA) dəstəyi ilə «Kiçik və orta müəssisələrin və onların məsləhətçilərinin (agentlərinin) vergi inzibatçılığı proseslərinə cəlb edilməsi» mövzusunda seminar keçirilmişdir. Albaniya, Avstriya, Belçika, Çex Respublikası, Estoniya, Finladiya, İrlandiya, İtaliya, İspaniya, İsveç, İsveçrə, Litva, Niderland, Norveç, Polşa, Portuqaliya, Rumıniya, Slovakiya, eləcə də OECD, IBFD-nin nümayəndələrinin iştirakı ilə keçirilən tədbirdə bir sıra ölkələrin təcrübələri təqdim olunmuşdur.

Niderlandın «Horizontal monitorinq», Avstriyanın «Vergi ödəyicilərinin maarifləndirilməsi və könüllü əməletmə sahəsində tədbirlər», Belçikanın «Kiçik və orta sahibkarlıq nümayəndələrinin vergi inzibatçılına cəlb edilməsi», Finlandiyanın «Finlandiya vergi administrasiyası və mühasibat şirkətləri arasında əməkdaşlıq» təcrübələri iştirakçılar tərəfindən maraqla qarşılanmışdır.

Tədbirdə Azərbaycanı Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin əməkdaşı Zaur Cəfərli təmsil etmişdir. Müzakirələr zamanı Azərbaycanda kiçik və orta sahibkarlığın stimullaşdırılması məqsədi ilə tətbiq olunan sadələşdirilmiş vergi rejimi və vergi ödəyicilərinin vergi orqanı ilə təhlükəsiz virtual yazışmasını təmin edən «onlayn kargüzarlıq» sistemi barədə iştirakçılara geniş məlumat verilmişdir.

■ Avstriyanın paytaxtı Vyana şəhərində İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) tərəfindən «Vergi sazişlərindən sui-istifadə və beynəlxalq vergidən yayınma» mövzusunda seminar keçirilmişdir. Seminarda 17 ölkədən 26 nümayəndə və OECD-nin ekspertləri David Partington, Michael Kiesevetter və Helmut Loukota iştirak etmişlər.

Seminarın istiqaməti müxtəlif praktiki məsələ və misalların həllinə yönəlmişdir. Tədbir zamanı vergi sazişlərinin ümumi xülasəsi, beynəlxalq müqavilələrin vergitutma üzrə əsas anlayışları, beynəlxalq konsensus üzrə gəlirin vergiyə cəlb edilməsi, vergitutma üzrə ənənəvi beynəlxalq konsepsiyaların tədbiqi, vergi müqavilələri və onların müxtəlif məsələlərdə həlledici rolu, vergi müqavilələri ilə yerli qanunvericilik arasında münasibətlər, OECD və BMT kimi nüfuzlu təşkilatların model konvensiyalarının quruluşu barədə ətraflı məlumat verilmişdir. Diqqət praktiki misallarla transmilli korporasiyaların beynəlxalq vergitutma məsələlərində vergidən yayınma hallarına yönəldilmiş, onların üçüncü ölkələr vasitəsi ilə malliyyə ehtiyatlarını vergidən yayındırmaları, xüsusilə offşor zonalarla bağlanmış müqavilələrdən sui-istifadə etmələri vurğulanmışdır.

Seminarda Azərbaycanı Vergilər Nazirliyinin Beynəlxalq münasibətlər idarəsinin Beynəlxalq müqavilələr şöbəsinin böyük dövlət vergi müfəttişi Ceyhun İsmayılov təmsil etmişdir.

# Avstraliyada vergi əfvi elan edilə bilər

*Ölkənin vergi administrasiyası tərəfindən bəyan edilmişdir ki, hökumət irimiqyaslı vergi əfvi vermək niyyətindədir.*

Bu addımın atılması zəruriliyi isə vergi ödəyicilərinin xarici ölkələrdə saxladıqları əvvəllər bəyan edilməmiş kapital və aktivlərinin könüllü şəkildə aşkara çıxarılması ilə izah olunur: bunun müqabiliində vergi cərimələri azaldılacaq.

Belə bir proqramın həyata keçirilməsinin mümkünlüyü barədə keçən ilin sonlarında Avstraliyanın vergi komissarı Kris Cordan məlumat versə də, nəzərdə tutulan planın hər hansı təfərrüatı açıqlanmamışdı. Bu ilin yanvarında hökumətin yenidən həmin mövzuya qayıtması və öz niyyətini ortaya qoyması kütləvi informasiya vasitələrində böyük maraqla qarşılanmışdır. Yerli və beynəlxalq ekspertlərin təxminlərinə görə, vəd edilən vergi əfvi bu il baş verərsə, hökumətin əvvəllər tətbiq etdiyi modelə əl atacağı ehtimalı yüksəkdir. Proqram cəmi bir neçə ay qüvvədə olacaq və yalnız dörd il bundan əvvələ qədər müddət ərzində yol verilmiş qanun pozuntularına tətbiq ediləcək.

Xarici ölkələrin təcrübəsi:

# Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının vergi sistemi

Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsi təqdim edir

**Əvvəli ötən sayımızda**

***Gəlir vergisi:*** Birləşmiş Krallıqda fiziki şəxslər öz gəlirləri və kapital artımından gəlir vergisi ödəyirlər. Vergi ödəyiciləri rezident və qeyri-rezident fiziki şəxslərdir. Krallıqda 2013-cü iləd ək «rezidentlik» anlayışının hüquqi tərifi mövcud deyildi - «2013-cu il büdcə layihəsi»ndə Qanuni Rezidentlik Testi adı ilə 06 aprel 2013-cü ildən qüvvəyə minmişdir. Bundan əvvəl rezidentliyin müəyyən olunması Ülya-Həzrətin Gəlir və Gömrük orqanının təlimatlarına əsaslanırdı. Birləşmiş Krallıq rezidenti olmaq üçün fiziki şəxs aşağıdakı şərtlərdən birinə uyğun olmalıdır:

- Vergi ilində Birləşmiş Krallıqda ən azı 183 gün qalması;
- Birləşmiş Krallıqda 91 ardıcıl gün ərzində evinin olması;
- Müəyyən şərtlər daxilində Birləşmiş Krallıqda işləməsi.

Gəlir vergisi tutulan gəlirlərə sahibkarlıq və peşə fəaliyyətindən gəlir, daşınmaz əmlakdan gəlir, investisiya gəlirləri, dividend gəlirləri, xarici mənbədən gəlirlər, muzdlu işdən gəlirlər daxildir. Birləşmiş Krallıqda gəlir növlərinə uyğun olaraq fərqli vergitutma qaydaları tətbiq edilə bilər.

Məcmu gəlir fiziki şəxsin bütün mənbələrdən əldə etdiyi gəlirdən bütün icazə verilən çıxılmalar çıxıldıqdan sonra yaranan fərqdən ibarətdir.

Birləşmiş Krallıqda yaşa görə aşağıdakı vergi güzəştləri tətbiq edilir:

- 05 aprel 1948-ci il tarixdən sonra anadan olmuş şəxslər - £9440 ($15500);
- 05 aprel 1938-06 aprel 1948-ci illərdə anadan olmuş şəxslər - £10500 ($17200);
- 06 aprel 1938-ci il tarixdən əvvəl anadan olmuş şəxslər - £10660 ($17465).

Sahibkarlıq fəaliyyətindən yaranmış zərər cari və ya əvvəlki ilin digər gəlirlərindən çıxıla və ya eyni (davam edən) fəaliyyət üzrə qeyri-müəyyən müddətə gələcək dövrlərə keçirilə bilər. Müvəqqəti zərərin çıxılması qaydası mövcud olduğundan, bəzi sahibkarlıq fəaliyyətindən yaranan zərər 3 il əvvəlki dövrə (1 il əvəzinə) keçirilə bilər. Qeyd olunan şərti zərər 2008-2009 və 2009-2010-cu illərdə dünya maliyyə böhranı zamanı sahibkarlıq fəaliyyəti nəticəsində yaranmış zərərlərdir. Zərər ilk növbədə gələcək dövrün gəlirləri hesabına kompensasiya edilməlidir və silinməmiş zərərin hər vergi ili üçün £50000-dən ($83000) artığının ötən dövrə aid edilməsinə yol verilmir.

Böyük Britaniyada vergi daxiolmalarının strukturu




Əməkhaqqı ödəmə mənbəyində vergitutma məqsədilə «PAYE» sisteminin (Pay as you earn - qazandıqca ödə) obyektidir. Sosial müdafiə ayırmaları da ödəmə mənbəyində tutulur. Ödəmə mənbəyində tutulan vergilər vergi öhdəliyinin son həddi deyildir və bu məbləğlər bəyannamə verilərkən nəzərə alınır.

Birləşmiş Krallıqda vergilərin ödəyici tərəfindən hesablanması sistemi mövcud olduğundan vergi ödəyiciləri özləri vergini hesablayıb bəyannaməni təqdim edirlər. Vergi öhdəliyinin bildiriş əsasında müəyyən edilməsi nəzərdə tutulmamışdır. Hesablama dövrü 31 mart 2013-cu ildə bitirsə, kağız bəyannamələr 31 oktyabr 2013-cü il, elektron bəyannamələr isə 31 yanvar 2014-cü il tarixinədək təqdim edilməlidir.

Muzdlu işlə bağlı əməkhaqqı və sosial ayırmalar sonradan yekun vergi öhdəliyində nəzərə alınmaqla ödəmə mənbəyində vergiyə cəlb olunur. Bütün digər gəlirlər üçün hesablanmış illik gəlir vergisi iki bərabər hissəyə bölünmək şərtilə ödənilə bilər. Bu ödənişlər, adətən, əvvəlki ilin öhdəliklərinə əsasən ödənilir. İllik ödəniş hesablama ilinin 31 yanvar, 2-ci növbəti ödəniş 31 iyul tarixinədək edilməlidir.

***Digər vergi növləri:*** Neft gəlirləri vergisi 15 mart 1993-cu il tarixdə və bu tarixdən əvvəl istifadəyə verilmiş yataqlardan əldə olunmuş gəlirlərə görə ödənilir. Bu verginin dərəcəsi 50%-dir. Ödənilmiş neft gəlirləri vergisi mənfəət vergisi məqsədləri üçün gəlirdən çıxılır. Yatağın istismarı ilə bağlı kapital şəklində qoyulmuş investisiya xərcləri 135% həcmində gəlirdən çıxılır. Hər yataq üzrə neft hasilatının minimum həcmi neft gəlirləri vergisindən azad olunur. Neft yatağının gəlirliliyi az olarsa, stimullaşdırıcı tədbir kimi müəyyən müddətdə ümumiyyətlə vergi tətbiq olunmaya bilər.

Eyni yataq üzrə yaranmış zərər elə həmin yataq üzrə geri və gələcək dövrə aid edilə bilər. Lakin yaranmış zərər həmin yatağın məhsuldarlığının tükənmə səbəbindən çıxılmadığı halda, digər yataqların gəliri hesabına kompensasiya edilə bilər.

***Sosial sığorta ayırmaları:*** İşəgötürən tərəfindən ödənilən Milli Sığorta Ödənişləri (MSO) işçinin əməkhaqqına uyğun müəyyənləşdirilir. Pensiya sxemi üzrə dövlət ödənişləri qaydalarına uyğun olaraq, işəgötürən - işçilərin həftəlik qazancları £148-dən (2013-2014-cu illər) artıq olarsa - 13,8%-lə sosial sığorta ödənişləri etməlidir. Əməkhaqqına uyğun proqrama üzv olan işçilərin həftəlik qazancları £109-770 arasında olarsa, işəgötürənlərə 3,4% güzəşt tətbiq edilir.

krossvord




**Yuxarıdan aşağı:**

1.Estoniyanın şimal-şərqində şəhər; 2.Mənasızlıq, mənadan məhrum fikir və ya əməl; 3.Azərbaycan kinorejissoru və kinoşünası, ssenaristi, aktyor, kino məsləhətçisi, televiziya aparıcısı və kino redaktorunun adı; 4.Səslənməsinə görə eyni olan, lakin yazılmasına görə fərqlənən sözlər; 6.Respublikamızda informasiya agentliyi; 7.Ellinizm dövrü yunan şairi və yeni attik komediyanın ən görkəmli nümayəndəsi; 8.Qədim Romanın ən əzəmətli tarixi abidəsi olub, dünyada ən böyük antik amfiteatr sayılır; 13.Sovet bioloqu və seleksioneri, bir çox meyvə sortlarının yaradıcısı; 14.Yarışda qələbə qazanmağa daha artıq şansı olan idmançı; 16.ABŞ-ın «Pop kraliça»sı; 17.Yunan mifologiyasında tanrı. Sənətin, ticarətin himayədarı sayılır; 19.Populyar mobil telefon markası; 21.Sakit okeanda ada; 22.Orta əsrlərdə Yaxın və Orta Şərq ölkələrində torpaqdan istifadə etmək haqqı.

**Soldan sağa:**

1.Həndəsi fiqur; 5.Kimyəvi elementin ən kiçik zərrəciyi; 9.Argentinada xırda pul vahidi; 10.Qədim yunan mifologiyasında su tanrısı; 11.İtaliyada göl; 12.Kimyəvi element; 14.Fosforun metallarla birləşməsi; 15.Kənd təsərrüfatında sahibkarlıqla məşğul olan şəxs; 18.Qış Olimpiya Oyunları-2010-un paytaxtı; 20.Ənənə; 23.Kinorejissor və aktyor S.Stalloniyə məşhurluq gətirən filmlər silsiləsi; 24.Kanadada çay; 25.Fransada istifadə olunan uzunluq ölçü vahidi: 1949 metrə bərabərdir; 26.IX-X əsrlərdə (897-967-ci ilər) yaşamış ərəb yazıçısı, alim və musiqiçi. 20-cildlik ərəb poeziyası antologiyasının tərtibçisi.

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Cihad; 2.Viuella; 3.NATO; 4.İnnabı; 6.Landi; 7.Qroznıy; 8.Debitor; 13.Palitra; 14.Taqanək; 16.Bomarşe *(Pyer)*; 17.Beysik; 19.Lifan; 21.Qlier *(Reynqold)*; 22.Efes.

**Soldan sağa:** 1.Cavanşir; 5.Alaq; 9.Hyuston *(Uitni)*; 10.Ennio *(Morrikone)*; 11.Dali *(Salvador)*; 12.Obsidian; 14.Trayan; 15.Kovboy; 18.Qulliver; 20.Smoq; 23.Nəfir; 24.Səfərli *(İslam)*; 25.Kann; 26.İkosaedr.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini:Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Hüseyn Cavid pr., 81

Telefon: 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

Tiraj: 14000

## idman

# «Avro-2016»nın seçmə mərhələsinin püşkü atıldı

*Fevralın 23-də Fransanın Nitsa şəhərindəki «Akropolis» konfrans sarayında 2016-cı ildə keçiriləcək futbol üzrə Avropa çempionatının seçmə mərhələsinin püşkatma mərasimi olmuşdur.*

Tədbirdə AFFA-nın baş katibi Elxan Məmmədov və Azərbaycan milli komandasının baş məşqçisi Berti Foqts da iştirak etmişlər.Püşkatmanın nəticələrinə əsasən, millimiz **H qrupunda** İtaliya, Xorvatiya, Norveç, Bolqarıstan və Malta yığmaları ilə qarşılaşacaqdır.

**A qrupunda** Hollandiya, Çex Respublikası, Türkiyə, Latviya, İslandiya, Qazaxıstan; **B qrupunda** Bosniya və Herseqovina, Belçika, İsrail, Uels, Kipr, Andorra; **C qrupunda** İspaniya, Ukrayna, Slovakiya, Belarus, Makedoniya, Lüksemburq; **D qrupunda** Almaniya, İrlandiya, Polşa, Gürcüstan, Şotlandiya, Cəbəlütariq; **E qrupunda** İngiltərə, İsveçrə, Sloveniya, Estoniya, Litva, San-Marino, F qrupunda Yunanıstan, Macarıstan, Rumıniya, Finlandiya, Şimali İrlandiya, Farer adaları; **G qrupunda** Rusiya, İsveç, Avstriya, Monteneqro, Moldova, Lixtenşteyn; **İ qrupunda** isə Portuqaliya, Danimarka, Serbiya, Ermənistan, Albaniya və Fransa (ev sahibi olduğu üçün seçmə mərhələdən azaddır) yer almışlar.




Seçmə mərhələnin oyunlarına cari ilin sentyabrında başlanılacaqdır. Turnirin final mərhələsi 2016-cı il iyunun 10-dan iyulun 10-dək Fransanın 10 stadionunda keçiriləcəkdir. İlk dəfə olaraq həlledici mərhələdə 16 milli komanda birincilik uğrunda yarışacaqdır.

# «Synergy Baku» Avropa turlarında

*Azərbaycanın ilk peşəkar velosiped komandası «Synergy Baku» 2014-cü ilin Avropa turlarına başlamışdır.*

Azərbaycan Velosiped İdmanı Federasiyasından bildirmişlər ki, komandamızın üzvləri Sloveniyada keçirilən Beynəlxalq Velosipedçilər İttifaqının (UCİ) 2.1 kateqoriyalı birgünlük «İzola» Qran-Prisində mübarizə aparmışlar.

Heyətdə beş velosipedçi yer almışdır. Onlardan üçü - avstriyalı Markus Eybeger və Yan Sokol, həmçinin irlandiyalı Filipp Laveridir «Synergy Baku»nun heyətində debüt etmişlər. Digər iki velosipedçi isə ötən il də komandamızın uğurları üçün çalışmış ukraynalı Aleksandr Surutkoviç və irlandiyalı Konnor Makkonvey olmuşdur.

İştirakçılar birgünlük yarışda 142 kilometr məsafə qət etmişlər. Məşqçilərin də əvvəlcədən planlaşdırdığı kimi, kollektivin digər üzvləri Markus Eybegerin öndə getməsi üçün çalışmışlar və o, bu imkandan istifadə edərək 142 km-lik yarışı liderlər mövqeyində başa vurmuşdur.

Ümumilikdə 118 velosipedçinin iştirak etdiyi yarışda M.Eybeger finiş xəttini yarışın qalibi ilə eyni vaxtda - 3 saat 43 dəqiqə 1 saniyəyə keçsə də, fotofinişə əsasən, 20-ci yerlə kifayətlənmişdir.

# Güləşçilərimiz mötəbər turnirdən qələbə ilə qayıtdılar

*Bolqarıstanın paytaxtı Sofiyada güləş üzrə 52-ci «Dan Kolov - Nikola Petrov» beynəlxalq turniri başa çatmışdır. Yarışda iştirak edən sərbəst güləş üzrə yığma komandamız 5 qızıl və 2 bürünc medal qazanmışdır.*

Turnirin ilk günündə mübarizəyə qoşulan Hacı Əliyev (61 kq) bütün rəqiblərini üstələyərək qızıl medala sahib olmuşdur. İdmançımız Əlcəzair, Ermənistan, Bolqarıstan və Türkiyə güləşçilərini mübarizədən kənarlaşdırmışdır. Cəbrayıl Həsənov (74 kq) isə bürünc medal qazanmışdır.

Turnirin ikinci günündə 3 pəhləvanımız mübarizəyə qoşulmuşdur. Həmzət Osmanov (86 kq) və Cəmaləddin Məhəmmədov (125 kq) fəxri kürsünün ən yüksək pilləsinə qalxmışlar. Ruslan Surxayev (57 kq) bürünc medala sahib olmuşdur. Yarışın sonuncu günündə 65, 70 və 97 kiloqram çəki dərəcələridə pəhləvanlar qüvvələrini sınamışlar. Ruslan Dibirhacıyev (70 kq) və Olimpiya çempionumuz Şərif Şərifov (97 kq) inamla güləşərək finala yüksəlmişlər. Həlledici mərhələni də qələbə ilə tamamlayan güləşçilərimiz turnirin qızıl medalını qazanmışlar.

Olimpiya və dünya çempionu Şərif Şərifov sərbəst güləş yarışlarında turnirin ən texnikalı güləşçisi nominasiyasında kubokla mükafatlandırılmışdır.

Görüşlərin idarə olunmasında ölkəmizi beynəlxalq dərəcəli hakim Əbdül Nuriyev təmsil etmişdir.

# Soçi Olimpiadası başa çatdı

*Fevralın 23-də Soçidə XXII Qış Olimpiya Oyunlarının bağlanış mərasimi keçirilib.*

Olimpiadada 2800-ə yaxın idmançı 7 idman növündə 98 dəst medal uğrunda mübarizə aparıb. Rusiya Soçi olimpiadasında medal sayına görə birinci pillədə yer alıb - 13 qızıl, 11 gümüş, 9 bürünc. Norveç yığması 26 medalla (11-5-10) ikinci, Kanada millisi isə 25 medalla (10-10-5) üçüncü sırada qərarlaşıb. Ümumilikdə Olimpiya Oyunlarında 26 ölkədən idmançılar medal qazanıb. Azərbaycan bu olimpiadada 4 idmançı ilə təmsil olunsa da, mükafatçılar sırasına düşə bilməyib. Ümumilikdə 88 ölkənin qatıldığı yarışları 3 milyarddan artıq tamaşaçı seyr edib.



Qeyd edək ki, Soçidə XI Qış Paralimpiya Oyunları martın 7-dən 16-dək keçiriləcək. Paralimpiya Oyunlarında 72 dəst medal öz sahibini tapacaq.

## mozaika

# Mobil telefonlar və insan səhhəti

tədqiqat

*Bu mövzu mobil telefonlar kütləvi istehsala başlayandan gündəlikdədir və hələ də öz aktuallığını saxlayır. «The Telegraph» qəzeti maraqlı bir informasiya yaymışdır.*



Qəzetin yazdığına görə, MTHR proqramı üzrə on bir illik tədqiqatlardan sonra Britaniya alimləri belə qənaətə gəlmişlər ki, mobil telefonlar öz sahiblərinin səhhətinə təsir göstərmir. Göstərilir ki, mobil telefondan istifadənin onkoloji xəstəliklərin inkişafı riskini artırdığını güman etməyə heç bir əsas yoxdur. Baza stansiyalarında şüalanma da xərçəngin inkişafı riskini artırmır.

MTHR-in rəhbəri, professor Devid Koqqon bildirmişdir ki, hələ 11 il bundan əvvəl araşdırma başlanarkən mobil telefonların insan orqanizminə mümkün təsiri barədə alimlərin təsəvvürləri müxtəlif, çox vaxtsa ziddiyyətli idi.

Koqqon demişdir ki, indi tam müstəqil şəkildə aparılmış tədqiqat çoxillik mübahisələrə bir növ nöqtə qoymuşdur. Digər tərəfdən, Koqqon inkar etmir ki, telefon şüasının sağlamlığa təsiri barədə müəyyən məsələlər açıq qalmışdır, amma narahatlıq üçün əsas xeyli azalmışdır.

Jurnalistlər qeyd edirlər ki, bütün tədqiqatları əhatə edən proqramın dəyəri təqribən 14 milyon funt-sterlinq təşkil etmişdir. Alimlər 100 min mobil telefon istifadəçisini əhatə edəcək daha geniş və uzunmüddətli tədqiqat aparmağı planlaşdırırlar.

Xatırladaq ki, təqribən bir il əvvəl Skandinaviyadan olan bir qrup alim də eyni qənaətə gəlmişdi. Onların apardıqları tədqiqat mobil telefonların istifadəsi ilə onkoloji xəstəliklərin inkişafı riski arasında asılılıq aşkar etmədiklərini bildirmişdilər.

# İki il ərzində 300 milyondan çox abunəçi

maraqlı

2011-ci ilin martında Yaponiyada böyük dağıntılara və 18 mindən çox insanın ölümünə səbəb olan güclü zəlzələ zamanı yaranmış ümumi qarışıqlıqda öz yaxınlarından xəbər tutmaq istəyən insanlar telefon əlaqəsi yarada bilməmişdilər. İnsanların öz yaxınları ilə əlaqə yaratmaq istəyi «Line» adlı şəbəkənin yaranmasına səbəb olmuşdur. Zəlzələdən 3 ay sonra «NHN Japan» tərəfindən hazırlanan şəbəkə bir ildən də az müddət ərzində 50 milyon insan tərəfindən yüklənmişdi. Müqayisə üçün xatırladaq ki, dünyanın ən böyük sosial şəbəkəsi olan «Facebook»dan üç il ərzində yalnız 58 milyon abunəçi istifadə etmişdi. Line şəbəkəsi vasitəsi ilə istənilən təbii fəlakət zamanı istifadəçilər bir-birlərinə mesaj göndərməklə yanaşı, internet tarifinə uyğun olaraq telefon əlaqəsi də yarada bilərlər. Filippində baş verən dağıdıcı qasırğa zamanı bu şəbəkənin üstünlükləri bir daha nümayiş olundu. Şəbəkədən bu gün 300 milyondan çox abunəçi istifadə edir.



ELAN

**«Vergilər» qəzetinə 2014-cü il üçün abunə kampaniyası davam edir**

Azərbaycanın bütün şəhər və rayonlarında «Vergilər» qəzetinin illik abunə haqqı (çatdırılma xərcləri daxil olmaqla) **20 manat 80 qəpik** təşkil edir.
Qəzetimizə abunə yazılmaq üçün abunə haqqını redaksiyamızın aşağıda göstərilən bank hesabına köçürməyiniz xahiş olunur.

VÖEN: 1300327481; H/h AZ46ATAZ01200012258000138090; «Atabank» ASC; Kod:507581
VÖEN: 9900006651; M/h: AZ50NABZ01350100000000032944; SWIFT: BIK ATAZAZ22

texnologiya




# Elektromobillər üçün naqilsiz doldurma sistemi

*Dünyanın bir çox avtomobilqayırma sənayesi şirkətləri elektromobillər və hibrid avtomobillər üçün elektrik doldurma sistemlərinin yaradılması üzərində iş aparırlar.*

Yaponiyanın «Toyota» şirkətinin mühəndisləri isə elektromobillərin maqnit sahəsindən istifadə etməklə naqilsiz enerji ilə doldurulması sistemini işləyib hazırlamışlar. Bu zaman enerji torpağın üzərində yerləşdirilmiş maqnit-rezonans doldurucu vasitəsilə elektromobilə ötürülür. Elektromobilin altına isə elektrik rezonator birləşdirilir. Şirkətin rəsmilərinin bildirdiyinə görə, bu halda elektromobilin enerji ilə doldurulmasına naqil vasitəsilə doldurulmadakı qədər vaxt sərf olunur. Hazırda şirkət bu sistemin evlərdə və ictimai dayanacaqlarda quraşdırılması istiqamətində iş aparır.

Belə elektromobillərin sınaqdan sonra yaxın bir ildə bazara çıxarılacağı bildirilir.

# Uçan robotların yaradılması üçün sərmayə

*«Microsoft» korporasiyasının tədqiqat bölməsi İsveçrənin iki təhsil müəssisəsi ilə bir sıra istiqamətlər üzrə elmi layihələrin həyata keçirilməsi məqsədilə saziş imzalamışdır. Bu sazişə uçan robotların yaradılması layihəsi də daxildir. Robotları əl hərəkətləri və toxunuşla idarə etmək mümkün olacaqdır.*

Yayılan məlumata görə, proqram istehsalçısı 5 il ərzində Sürix Ali Texniki Məktəbinin (ETH Zurich) və Lozanna Politexnik Məktəbinin (EPFL) alimləri tərəfindən elmi tədqiqat işlərinin aparılmasına 5 milyon İsveçrə frankı (5,5 milyon dollar) ayırmağa razılıq vermişdir.

Müzakirə olunan 27 layihədən seçilən 7 layihənin həyata keçirilməsi üzərində «ETH Zurich» və «EPFL» alimləri «Microsoft Research» əməkdaşları ilə birlikdə çalışacaqlar.

Uçan robotların yaradılması üzrə layihəyə «Microsoft Research»in dosenti Otmar Hilliqs və doktor Şahram İzadinin cəlb edildiyi bildirilir. İlkin nəticələrə yaxın iki ildə nail olunacağı gözlənilir.

«Microsoft Research» alimləri ilk dəfə deyil ki, belə maraqlı layihələrlə məşğul olduqlarını bildirmişlər. Onlar bu yaxınlarda on insanı tələb olunan mərtəbəyə düyməni basmadan çatdıra bilən «ağıllı» lift yaradıldığını bildirmişdilər. Qurğunun işi bir sıra meyarlara, o cümlədən insanın davranış və vərdişləri, iş qrafiki ilə bağlı nəticə çıxarmağa imkan verən xüsusi alqoritmdən istifadəyə əsaslanır.

**Müdriklər deyib ki...**

***«Sağlam düşüncə olmayan yerdə hələ heç bir böyük ixtira edilməmişdir».***

***İsaak Nyuton (1643-1727)***

